

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

14 yanvar 2026-cı il, çərşənbə
№ 007 (7074)
Qiyməti 60 qəpik


## Mən Azərbaycanın bütün şəhid anaları adından Sizə "Qarabağın qəhrəman oğlu" deyirəm. Oğlum məni Sizə əmanət edib.

## Son 80 ildə

### Azərbaycan kimi tam və mütləq Qələbə qazanan ikinci ölkə olmayıb





Bax səh. 2

## Bakı və Abşeronun su təchizatında yeni dövr

Bax səh. 5

## Azərbaycanın bir nömrəli ticarət tərəfdaşı

Azərbaycan İtaliya ilə yaxın tarixi dostluq əlaqələrinə malikdir. Rəsmi Roma sadiq və prinsipial dövlət kimi beynəlxalq tribunalardan həmişə Azərbaycanın haqlı mövqeyini, yürütdüyü qətiyyətli siyasəti daim dəstəkləyərək ədalətli dövlət prinsipiallığını ifadə edib. Avropa İttifaqı, Avropa Şurası, AŞPA, ATƏT kimi təşkilatlarla əlaqələrin genişləndirilməsində maraqlı olan Azərbaycan üçün İtaliya ilə münasibətlərin dərinləşməsi Avropaya inteqrasiya baxımından mühüm əhəmiyyət kəsb edib. Eyni zamanda, regionda lider dövlət olan Azərbaycanla əməkdaşlıq rəsmi Romanın regionun iqtisadi həyatında aktiv yer alması üçün də şərait yaradır. İki ölkə arasında Çoxtərəfli Strateji Əməkdaşlıq haqqında Birgə Bəyannamənin imzalanması əlaqələrin coğrafiyasını artırmaqla və şaxələndirməklə Roma ilə Bakı arasında olan iqtisadi körpünü daha da möhkəmləndirib. Bunun nəticəsidir ki, Azərbaycan Qafqazda İtaliyanın ən yaxın strateji tərəfdaşına çevrilib.

Neft Fondunun...

Bax səh. 3

## Bakı - Vaşinqton əlaqələri: ikitərəfli əməkdaşlıq yüksəlir

Azərbaycanın 2020-ci il Vətən müharibəsindən sonra Cənubi Qafqazda yaratdığı geostrateji reallıqlar mühüm inkişaf perspektivləri yaradır. Yürüdülən siyasət, atılan addımlar beynəlxalq aləm tərəfindən ciddi izlənir - xüsusilə, ötən ilin avqustunda reallaşan Vaşinqton görüşlərinin ardından yaranan yeni situasiya olduqca pozitiv mesajlar verir. Zəngəzur dəhlizi (TRİPP) ideyası, Orta Dəhlizin dirçəldilməsi, enerji və yaşıl gündəlik layihələri - bütün bunlar Azərbaycanın sülh təşəbbüslərinin çoxşaxəli olduğunu ortaya qoyur. Paralel olaraq yaran vəziyyət ölkəmizi regionun strateji mərkəzinə çevirir.

Bu kontekstdə, xüsusilə, yeni bir mərhələyə qədəm qoymuş Azərbaycan-ABŞ münasibətlərində artıq davamlı yaxınlaşmalar, siyasi dialoqun inkişafı nəzərə çarpır. Ölkəmizə səfər edən ABŞ rəsmiləri regional inkişafa verdiyimiz töhfələri yüksək dəyərləndirir, sülh istiqamətində qətiyyətli addımlarımıza qiymət verir. Bir neçə gün öncə ölkəmizdə səfərdə olan ABŞ Ticarət və İnkişaf Agentliyinin (USTDA)...

Bax səh. 3

## "ACWA Power": Azərbaycan Avropa və digər regionlar üçün "yaşıl enerji" habı olacaq

Bax səh. 5

## Xarici kəlmələr milli kimliyimizi sarsıdır

Milli varlıq və birliyin möhkəmlənməsində dil mənəvi və mədəni zənginləşmə, elmi - texniki inkişaf üçün zəruri olan ünsiyyət vasitəsidir. Ana dili hər bir xalqın, hər bir millətin milli - mənəvi sərvəti, mənəviyyatının güzgüsüdür. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dil quruculuğu siyasəti xalqımızın ana dili olan Azərbaycan dilinin inkişafında, onun dünya dilləri içərisində öz layiqli yerini tutmasında mühüm rol oynamışdır. Bu siyasətin əsasını təşkil edən Azərbaycan dilinin qorunması və inkişaf etdirilməsi dövlətçiliyin əsas strateji məsələlərindəndir. Ölkədə dil siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin 23 may 2012-ci ildə imzaladığı "Azərbaycan dilinin qloballaşma şəraitində zamanının tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" Sərəncam Azərbaycan dilinin tətbiqi və inkişafı üçün yeni bir addımdır. Dövlətçiliyin əsas atributlarından biri olan dövlət dilinin qorunması dövlət siyasətinin tərkib hissəsi kimi həyata keçirilir...

Bax səh. 4

## Türkiyə Yaxın Şərqdə hərbi mövqeyini gücləndirir

Türkiyə Pakistan və Səudiyyə Ərəbistanı arasında formalaşan hərbi-müdafiə alyansına qoşulmaq niyyətindədir. Bu barədə "Bloomberg" məlumat yayıb. Məlumatda bildirilir ki, ötən ilin sentyabrında imzalanmış razılaşma kollektiv müdafiə prinsipini nəzərdə tutur. Sənədə əsasən, alyans üzvlərindən birinə qarşı istənilən aqressiya bütün iştirakçılara hücum kimi qiymətləndirilir. Bu mexanizm NATO-nun məşhur 5-ci maddəsinə bənzər şəkildə tətbiq olunur. Ankaranın bu niyyəti Türkiyənin Qərb müttəfiqləri ilə çətin münasibətlər fonunda təhlükəsizlik tərəfdaşlıqlarını şaxələndirmək və əsas müsəlman ölkələri ilə əlaqələrini gücləndirmək üçün daha geniş strategiyasını əks etdirir.

Səudiyyə Ərəbistanı və Pakistan uzun müddətdir ki, təlim, kəşfiyyat paylaşımı və silah əməkdaşlığı da daxil olmaqla, sıx hərbi əməkdaşlıq saxlayırlar.

Türkiyənin potensial...

Bax səh. 6




## Rusiyaya qarşı yeni sanksiyalar qəbul edilə bilər

Bax səh. 7

# Prezident İlham Əliyev Tərtər və Ağdərə rayonlarında səfərdə olub



Prezident İlham Əliyev yanvarın 13-də Tərtər elektromexanika zavodunun yenidənqurmadan sonra açılışında iştirak edib. Dövlətimizin başçısı əvvəlcə Ulu Öndər Heydər Əliyevin zavodun həyətində ucaldılmış büstü önünə gül dəstəsi qoyub. Müdafiə sənayesi naziri Vüqar Mustafayev dövlətimizin başçısına müəssisədə yaradılmış şərait barədə məlumat verib. Bildirilib ki, zavod 1976-cı ildə Lionozovo elektromexanika zavodunun Tərtər filialı olaraq yaradılıb. 1977-ci ilin aprelində fəaliyyətə başlayan zavodda elektrotexnika sənayesi məhsulları və xüsusi təyinatlı məhsullar istehsal edilib. İlk illərdə burada mühərrikli qayıqlar üçün "Taxometr-spidometr" məhsulları hazırlanıb. Zavodun əsasını qoymuş Ümummilli Lider Heydər Əliyev 1978-ci ildə onun rəsmi açılış mərasimində iştirak edib.

Prezident İlham Əliyevin 2005-ci ildə imzaladığı Sərəncama əsasən Müdafiə Sənayesi Nazirliyi yaradılıb və Tərtər elektromexanika zavodunun nazirliyin tabeliyinə verilib. Müxtəlif növ hərbi təyinatlı məhsullar istehsal ediləcək müəssisədə bir sıra qabaqcıl dövlətlərdən alınmış müasir, yüksək dəqiqlikli texnoloji avadanlıqlar quraşdırılıb. Texnoloji xətlərin layihələndirilməsi, istehsal axınlarının qurulması və seriyalı istehsala uyğunlaşma "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" QSC-nin yerli mütəxəssisləri tərəfindən icra edilib. Hazırda istehsal proseslərinin milli hərbi-texniki normalara, beynəlxalq keyfiyyət standartlarına uyğunlaşdırılması həyata keçirilir.

Zavodun ərazisində genişmiqyaslı tikinti və yenidənqurma işləri həyata keçirilib, yeni istehsalat binaları və sahələri, həmçinin köməkçi binalar istifadəyə verilib. Mövcud tikililərdə yenidənqurma işləri aparılıb, texnoloji prosesin tələblərinə uyğun olaraq ballistik və resurs sınaqları üçün xüsusi poliqonlar yaradılıb.

Qeyd edək ki, Azərbaycan Prezidenti müdafiə sənayesinin inkişafına xüsusi diqqət yetirir. Bu sahədə yerli şirkətlər qurulur, xarici tərəfdaşlarla əlaqələr genişləndirilir, ən müasir çağırışlara cavab verən texnologiyaların tətbiqi ilə istehsalın həcmi artırılır. Ötən il ölkəmiz 1,4 milyard manat dəyərində hərbi təyinatlı məhsul istehsal edib ki, bunların bir hissəsi Azərbaycan Silahlı Qüvvələrinin arsenalına, bir hissəsi isə ixraca yönəldilib. Hazırda Azərbaycan 20-yə yaxın ölkəyə hərbi təyinatlı məhsullar ixrac edir.

## Ağdərədə su elektrik stansiyası istifadəyə verilib

Prezident İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Qozlukörpü kəndində "Qozlukörpü" Su Elektrik Stansiyasının (SES) açılışında iştirak edib. Dövlətimizin başçısına bu stansiya, həmçinin Qarabağda və Şərqi Zəngəzurda yerləşən su elektrik stansiyalarının vəziyyəti, Tərtərçay silsiləsinin mövcud və perspektiv hidroenerji potensialı barədə məlumat verilib. Bildirilib ki, işğaldan azad edilmiş ərazilərimizdə istismar olunan 307 MVt gücündə 38 su elektrik stansiyasında 2025-ci ildə 750 milyon kilovat-saat yaşıl enerji istehsal edilib. Bununla da 160 milyon kubmetr təbii qaza qənaət olunub, 280 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınıb. Tərtərçayın hidroenerji potensialının 30 SES olması müəyyən edilib. Hazırda 22 SES "AzərEnerji" ASC tərəfindən istismardadır, 5 SES-in tikintisi icra olunur, 3 SES-in inşası nəzərdə tutulur. Qeyd edək ki, Tərtərçay tamamilə ölkə daxilində formalaşır.

Prezident İlham Əliyevin Qarabağın və Şərqi Zəngəzurun yaşıl enerji zonasına çevrilməsi ilə bağlı tapşırığına uyğun olaraq Ağdərə rayonunda, regionun ən iri su arteriyası olan Tərtərçay üzərində inşa edilmiş "Qozlukörpü" Su Elektrik Stansiyası 14,7 meqavat gücündədir. Sərt relyef, iqlim şəraiti və çətin logistika səbəbindən tikinti prosesi digər bölgələrlə müqayisədə daha çox vaxt tələb etməsinə baxmayaraq, layihə qısa müddətdə uğurla icra olunub. Dəniz səviyyəsindən 955 metr yüksəklikdə müasir baş suqəbuledici qurğu yaradılıb.

Stansiyanın ölkə enerjisisteminə qoşulması üçün açıq paylayıcı qurğu yaradılıb, həmçinin optik kabel xətti çəkilərək stansiya rəqəmsal idarəetmə sisteminə inteqrasiya olunub. Burada il ərzində orta hesabla 43 milyon kilovat-saat elektrik enerjisinin istehsalı nəzərdə tutulur ki, bununla da 9,5 milyon kubmetr təbii qaza qənaət ediləcək, 18 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınacaq.



## Çapar, Heyvalı, Çıldıran və Aşağı Oratağ kəndlərinin sakinləri ilə görüş

Prezident İlham Əliyev Ağdərə rayonunun Çapar kəndində görülmüş işlərlə də tanış olub. Dövlətimizin başçısına kənddə görülmüş işlər barədə məlumat verilib.

Çapar Ağdərə rayonunun İmarət Qərvənd kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsinin cənub-şərq yamacında yerləşir. Burada qala və məbəd memarlıq abidələri var. Çapar kəndi Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ildə həyata keçirdikləri antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib. Çaparda mövcud olan fərdi evlərin sayı 104-dür. Onlardan da 41-i yararsız, 63-ü isə qismən yararlıdır. Evlərdən 40-ı artıq istismara hazırdır. İl ərzində daha 23 ev bərpa ediləcək. İlkin olaraq kəndə 26 ailə (96 nəfər) qayıdıb.

Burada sosial məsələlərin həlli ilə bağlı bir çox iş görülüb. Belə ki, 3 ədəd mövcud transformator və elektrik xətti bərpa edilib, yeni elektrik, qaz və rabitə xətləri çəkilib, su şəbəkəsi yaradılıb, su anbarları bərpa olunub. Uzunluğu 6 kilometrə yaxın olan kənddaxili yollar yenidən qurulub. Kənddə yeni salınmış park da sakinlərin istifadəsinə veriləcək. Sonra Prezident İlham Əliyev kəndə köçən Kəmalə Dadaşovanın ailəsinə baş çəkərək yaşayış şəraiti ilə maraqlanıb.

Prezident İlham Əliyev Ağdərə rayonunun Heyvalı kəndində görülmüş işlərlə də tanış olub. Heyvalı kəndi Ağdərə rayonunun eyniadlı inzibati ərazi dairəsində, Qarabağ silsiləsinin ətəyində yerləşir. İşğaldan əvvəl yerli əhalinin əsas məşğuliyyətini taxılçılıq, tütünçülük və heyvandarlıq təşkil edib, kənddə məktəb, klub və poçt kimi sosial obyektlər fəaliyyət göstərib. Kənd 2023-cü ildə həyata keçirilən antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib. Heyvalıda mövcud olan 126 fərdi evdən 45-i artıq tam bərpa edilib və istismara hazırdır. İl ərzində daha 50 evin bərpası nəzərdə tutulur. Artıq doğma yurduna dönən 19 ailənin (74 nəfər) məskunlaşması üçün bütün zəruri şərait yaradılıb.

Kəndin yenidən qurulması çərçivəsində sosial infrastrukturun bərpası istiqamətində genişmiqyaslı işlər görülüb. Belə ki, 2 mövcud transformator, enerji və qaz xətləri bərpa olunub, yeni rabitə xətləri çəkilib. Sakinlərin içməli su ilə təmin olunması üçün 60 kubmetrlik çən quraşdırılıb və su şəbəkəsinin inşası üzrə işlərə başlanılıb. Bundan əlavə, 4,5 kilometr uzunluğunda kənddaxili yollar əsaslı şəkildə bərpa olunub və sakinlərin asudə vaxtı üçün yeni istirahət parkı salınıb.

Sonra Prezident İlham Əliyev kənd sakini Sarvan Abbasovun ailəsinə baş çəkib, yeni evdə yaradılmış şəraitlə tanış olub.

Dövlətimizin başçısı Ağdərəyə səfəri çərçivəsində Çıldıran kəndində görülmüş işlərlə maraqlanıb. Qeyd edilib ki, Çıldıran Ağdərə rayonunun eyniadlı inzibati ərazi dairəsində, dağətəyi ərazidə yerləşir. İşğaldan əvvəl yerli əhalinin əsas məşğuliyyətini heyvandarlıq və bitkiçilik təşkil edib. Kənddə məktəb, mədəniyyət evi, kitabxana və tibb məntəqəsi fəaliyyət göstərib. Kəndin ərazisi tarixi abidələrlə zəngindir. Burada XII əsrə aid "Alban məbədi" və XIII əsrə aid "Qırmızı məbəd" memarlıq abidələri yerləşir. Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ilin sentyabrında həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində kəndin işğalına son qoyulub.

Kənddə 177 fərdi ev mövcuddur ki, onlardan da 69-u yararsız, 108-i isə qismən yararlıdır. İndiyədək 28 ev istismara hazır vəziyyətə gətirilib. Bu il daha 30 evin bərpası planlaşdırılır. Hazırda ilkin olaraq kəndə 13 ailə (48 nəfər) qayıdıb.

Çıldıran kəndində 2 mövcud transformator, elektrik və qaz xətləri bərpa edilib, yeni elektrik, qaz və rabitə xətləri çəkilib. Bundan başqa, su nasosu istifadəyə verilib, ümumi həcmi 190 kubmetr olan su anbarları təmizlənib və subartezian quyusu təmir olunub, 8,4 kilometr uzunluğunda kənddaxili yollar bərpa edilib, park salınıb. Sonra Prezident İlham Əliyev kəndə köçmüş Verdi Abdullayevin ailəsinə baş çəkib.

Dövlətimizin başçısı Ağdərə rayonunun Aşağı Oratağ kəndində görülmüş işlərlə də tanış olub. Bildirilib ki, bu kənd Ağdərə rayonunun eyniadlı inzibati ərazi dairəsində, dağətəyi ərazidə yerləşir. İşğaldan əvvəl kəndin əhalisi əsasən üzümçülük, heyvandarlıq, taxılçılıq və tütünçülüklə məşğul olub, burada məktəb, klub, kitabxana və tibb məntəqəsi fəaliyyət göstərib. Aşağı Oratağ kəndi Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ildə həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində işğaldan azad olunub.

Kənddə ümumilikdə 308 fərdi ev var. Onlardan 148-i yararsız, 160-ı isə qismən yararlıdır. Hazırda 100 ev görülmüş bərpa işlərindən sonra istismara hazırdır. İl ərzində daha 60 ev əsaslı təmir və bərpa olunacaq. Kəndə ilkin olaraq 31 ailə (119 nəfər) qayıdıb.





## Son 80 ildə Azərbaycan kimi tam və mütləq Qələbə qazanan ikinci ölkə olmayıb

Prezident İlham Əliyev Ağdərənin Aşağı Oratağ kəndində Aşağı Oratağ, Çıldıran, Heyvalı və Çapar kəndlərinin sakinləri ilə görüşüb. Dövlətimizin başçısı bildirib ki, son iki il ərzində Ağdərə rayonunun bütün qəsəbələrində, kəndlərində monitorinq aparmışıq. "Birinci mərhələdə bərpa olunan kəndləri müəyyən etmişik və artıq Ağdərə rayonunun doqquz kəndinə keçmiş köçkünlər qayıtmışlar. Uzun illərin həsrəti arxada qaldı, haqq-ədalət Zəfər çaldı. Azərbaycan öz ərazi bütövlüyünü, suverenliyini bərpa etdi. Azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıdıblar və burada qürurla yaşayacaqlar, xoşbəxt yaşayacaqlar, rahat yaşayacaqlar. Əminəm ki, bundan sonra müharibə olmayacaq. Azərbaycan dövləti güclü dövlətdir. Bizi güclü edən xalqımızdır, yumruq kimi birləşən millətimdir.

Son iki il ərzində, - antiterror əməliyyatından sonra, - 2023-cü ildən bu yana bütün bu bölgələrdə - Ağdərədə, Xocalıda, Xankəndidə, Xocavənddə həyat bərpa edilir. Beş il bundan əvvəl isə vaxtilə işğal altında olmuş digər ərazilərə köçkünlər qayıtmağa başlayıblar. Bu gün artıq 73 min insan - həm keçmiş köçkün, həm də ki, köçkün olmayan, amma azad edilmiş ərazilərdə işləyənlər, çalışanlar, oxuyanlar yerləşiblər və hər ay Qarabağa qayıdan vətəndaşların sayı artır".

Prezident İlham Əliyev bildirib ki, son 80 il ərzində Azərbaycan kimi tam və mütləq Qələbə qazanan ikinci ölkə olmayıb. Ağdərədə yeni dövrün başlandığını qeyd edən dövlətimizin başçısı şəhərin təzə Baş planının təqdim ediləcəyini və şəhərin yenidən qurulacağını bildirib. "Bura çox gözəl bir sənaye və turizm mərkəzi olacaq. Bu səfalı yerlər göz oxşayır. Hər tərəf dağ, meşə, gözəl hava, bulaqlar, çaylar. Ona görə Ağdərənin gələcək inkişafı çox parlaq olacaq





## "Dəmirli" Filiz Emalı Kompleksinin fəaliyyəti ilə tanışlıq

Prezident İlham Əliyev Ağdərə rayonunun Canyataq kəndində "Dəmirli" Filiz Emalı Kompleksinin fəaliyyəti ilə tanış olub. İqtisadiyyat naziri Mikayıl Cabbarov və "Azerbaijan International Mining Company Limited" şirkətinin prezidenti və baş icraçı direktoru Rza Vəziri dövlətimizin başçısına kompleks barədə məlumat veriblər. Bildirilib ki, kompleksə mis flotasiya zavodu, nəm tullantı anbarı, elektrik yarımstansiyası və digər tikililər daxildir. Mədən və istehsalat üzrə ümumi sahəsi 929 hektar olan kompleks Türkiyə və Almaniya texnologiyası əsasında yenidən qurulub. Yenidənqurma və bərpa işlərinə 15,3 milyon manat özəl investisiya yatırılıb.

"Dəmirli" Azərbaycanın işğaldan azad edilmiş ərazilərində dağmədən sənayesi üzrə işə başlayan ilk layihədir. Mis flotasiya zavodunda "Dəmirli" mədənindən çıxarılan filiz emal ediləcək və son məhsul - mis konsentratı istehsal olunacaq. Mis flotasiya zavodunun illik istehsal gücü 5,6 milyon ton filiz emalıdır.

1993-cü ildən Ermənistanın işğalı altında olan "Dəmirli" mis yatağı 2013-cü il mayın 13-dən etibarən təqribən 10 il ərzində qeyri-qanuni istismara məruz qalıb. O dövr üçün məlum olan 311 min ton çıxarılabilən mis ehtiyatının 218 min tonu, yəni 70 faizi qanunsuz şəkildə hasil edilib.

Hazırda qalıq ehtiyatların ilkin istismar dövrü 2025-2030-cu illəri əhatə edir. Bu müddətdə Çin Xalq Respublikasına 1,6 milyard manat dəyərində konsentrat şəklində 85 min ton mis metalının ixracı nəzərdə tutulur. Bununla belə, qarşıdakı illərdə mədənin mis ehtiyatlarının artırılması proqnozlaşdırılır. İlkin geoloji kəşfiyyat məlumatlarına əsasən, burada 470 min tona yaxın əlavə mis ehtiyatı mövcuddur. Aparılacaq 4 illik geoloji kəşfiyyat və tədqiqat proqramı nəticəsində bu ehtiyatların çıxarılabilən həcmi dəqiqləşdiriləcək.

Kompleksdə ilkin mərhələdə 980 nəfər daimi işlə təmin olunub. Onlardan 260 nəfəri keçmiş məcburi köçkün, o cümlədən işğaldan azad edilmiş ərazilərə qayıdan vətəndaşlardır. Növbəti illərdə əksəriyyəti yerli icmaları təmsil edən vətəndaşlar üçün daimi iş yerlərinin sayının 1250-yə çatdırılması planlaşdırılır.

Mədəndə hasilat Azərbaycan ərazisində bir sıra filiz yataqlarının kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haqqında "AzerGold" QSC ilə ABŞ-ın "R.V. Investment Group Services" şirkəti arasında 2024-cü ildə bağlanmış saziş üzrə əməliyyat şirkəti "Azerbaijan International Mining Company Limited" tərəfindən aparılır.

Prezident İlham Əliyev tərəfindən 2024-cü ildə təsdiq edilmiş Qanuna əsasən, hasilatın pay bölgüsü haqqında saziş üzrə dövləti təmsil etmək səlahiyyəti "AzerGold" QSC-yə həvalə edilib. Layihə çərçivəsində ətraf mühitin mühafizəsi üzrə kompleks tədbirlər həyata keçirilib. İlkin vəziyyətin qiymətləndirilməsi və ekoloji monitorinqlər aparılıb, nəticələr əsasında Ətraf və Sosial Mühitə Təsirin Qiymətləndirilməsi sənədi hazırlanıb.

Prezident İlham Əliyev süxurların partladılması üçün rəmzi düyməni basıb.

Dövlətimizin başçısı Ağdərənin Baş Planı ilə də tanış olub. Bildirilib ki, Baş plana əsasən şəhərin məskunlaşma ərazisi 444 hektardan 522 hektara çatdırılacaq. 20 illik perspektiv dövr üçün şəhər əhalisinin sayının 14 min nəfər olması proqnozlaşdırılır. Baş planın konseptual sxeminə şəhər mərkəzi, fərdi və azsıxlıqlı yaşayış sahələri, çoxfunksiyalı və ictimai-işgüzar zonalar daxildir. Bundan başqa, şəhərdə terras parkı, çayətrafı bulvar, aqroturizm, sənaye və logistika zonalarının yaradılması planlaşdırılır. Şəhərin mənzil fondunun 420 min kvadratmetr olması, həmçinin 80 çarpayılıq xəstəxananın, 2520 şagird yerlik 5 məktəbin, 840 yerlik 5 uşaq bağçasının və peşə məktəbinin inşası planlaşdırılır. Birinci mərhələdə sahəsi 104 hektar olan şəhər mərkəzinin inkişaf etdirilməsi nəzərdə tutulur. 2030-cu ilədək şəhərdə 3590 nəfərin məskunlaşması mümkün olacaq. Burada yol və küçələrin uzunluğu 46,8 kilometr, velosiped zolaqlarının uzunluğu isə 10 kilometr təşkil edəcək.

Ağdərə şəhərində Müdafiə Nazirliyinin hərbi qulluqçuları üçün nəzərdə tutulan yaşayış binaları da istismara verilib. Bildirilib ki, Ağdərədə Müdafiə Nazirliyinin hərbi qulluqçuları üçün ümumilikdə 3 binada təmir-bərpa işləri görülüb. Dörd və beşmərtəbəli binalardakı 72 mənzildən 8-i birotaqlı, 36-sı ikiotaqlı, 24-ü üçotaqlı, 4-ü isə dördotaqlıdır.

Prezident İlham Əliyev Ağdərə rayonunda Xüsusi Əməliyyat Mərkəzinin təməlini qoyub.

# Azərbaycanın bir nömrəli ticarət tərəfdaşı

## İtaliya ilə ölkəmiz arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib



Azərbaycan İtaliya ilə yaxın tarixi dostluq əlaqələrinə malikdir. Rəsmi Roma sadiq və prinsipial dövlət kimi beynəlxalq tribunalardan həmişə Azərbaycanın haqlı mövqeyini, yürütdüyü qətiyyətli siyasəti daim dəstəkləyərək ədalətli dövlət prinsipiallığını ifadə edib. Avropa İttifaqı, Avropa Şurası, AŞPA, ATƏT kimi təşkilatlarla əlaqələrin genişləndirilməsində maraqlı olan Azərbaycan üçün İtaliya ilə münasibətlərin dərinləşməsi Avropaya inteqrasiya baxımından mühüm əhəmiyyət kəsb edib. Eyni zamanda, regionda lider dövlət olan Azərbaycanla əməkdaşlıq rəsmi Romanın regionun iqtisadi həyatında aktiv yer alması üçün də şərait yaradır. İki ölkə arasında Çoxtərəfli Strateji Əməkdaşlıq haqqında Birgə Bəyannamənin imzalanması əlaqələrin coğrafiyasını artırmaqla və şaxələndirməklə Roma ilə Bakı arasında olan iqtisadi körpünü daha da möhkəmləndirib. Bunun nəticəsidir ki, Azərbaycan Qafqazda İtaliyanın ən yaxın strateji tərəfdaşına çevrilib.

**Neft Fondunun 3 milyard dollara yaxın investisiyası**

Bakıda keçirilən Azərbaycan və İtaliya arasında İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın VI iclasında çıxış edən komissiyanın Azərbaycan tərəfindən həmsədri, energetika naziri Pərviz Şahbazov bildirib ki, hər iki ölkənin dövlət başçılarının və hökumət üzvlərinin qarşılıqlı səfərləri və imzalanan mühüm sazişlər ikitərəfli münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəldib. Tərəflər arasında iqtisadi-ticari əməkdaşlığın dinamikası dayanmadan hər il artım nümayiş etdirib və iqtisadi münasibətlərin keyfiyyəti və strukturu genişlənib, İtaliya Azərbaycanın birinci ticarət və ixracat tərəfdaşına çevrilib. 2025-ci ilin yanvar-noyabr aylarında iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 11,3 milyard dollar təşkil edib ki, Azərbaycanın toplam ticarət dövriyyəsinin 25 faizi bu dövlətin payına düşür. Azərbaycanın ixracının isə 46,7 faizi İtaliyada cəmləşir. Eləcə də hər iki tərəf fəal investisiya mübadilələri qurub. İndiyədək Azərbaycan İtaliyaya 342 milyon dollar, qarşı tərəf isə ölkəmizə 805 milyon dollar məbləğində investisiya yatırıb.

Hazırda Azərbaycan Dövlət Neft Fondunun İtaliyadakı investisiya portfelinin bazar dəyəri 2,8 milyard dollar təşkil edir. Bu göstəricilərin artımını təmin etmək üçün sərmayələrin təşviqi və qarşılıqlı qorunmasına dair sazişin imzalanması qarşıda duran zəruri məsələlərdən biri hesab edilir.

**Neft ixracında birinci, qaz nəqlində ikinci**

İtaliya ilə Azərbaycan arasında iqtisadi sahədə əlaqələrin ən mühüm sahələrindən biridə enerji əməkdaşlığıdır. Azərbaycan ötən il təkcə SOCAR vasitəsilə 10 milyon 340 min ton neft və ümumilikdə 9,5 milyard kubmetr qaz tədarük etməklə İtaliyanın xam neft üzrə əsas, təbii qaz üzrə isə ikinci ən böyük təchizatçısı mövqeyini qorub saxlayıb.  Bu yaxın tərəfdaşlıq modeli eyni zamanda, Cənub Qaz Dəhlizi üzrə genişşaxəli əməkdaşlıq alyansını gücləndirir, Avropa regionunda nümunəvi neft və qaz təchizatı zəncirini qurmaqdadır. Həmin əməkdaşlığın mühüm töhfəsi kimi Trans-Adriatik Boru Kəmərinin (TAP) əhəmiyyəti xüsusi önəm daşımaqdadır. TAP kəməri ilə 5 il ərzində Avropaya 54,3 milyard kubmetr qaz nəql olunub ki, bu da Azərbaycanın Pan-Avropa ailəsində mövqeyinin güclənməsinə səbəb olub. Bu enerji ailəsində ilk yerdə dayanan İtaliya Avropada Azərbaycanın neft və qazının ən böyük alıcısı olub, ümumi neft ixracının təxminən 45 faizi, qaz ixracının isə 38 faizi bu ölkəyə yönəlib.










**“Eni” və SOCAR-ın təmiz enerji planları**

“Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə İtaliya Respublikasının “Eni S.P.A” şirkəti arasında enerji keçidi və istixana qazlarının azaldılması sahəsində Anlaşma Memorandumu” isə təmiz enerjiyə keçid və ekoloji səmərəliliyin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. İtaliya Avropada təmin enerjiyə keçid üzrə ən iddialı ölkələrdən biri kimi qətiyyətli layihələr icra edir və öz təcrübəsini yaxın tərəfdaşları ilə bölüşür. Tərəflər Azərbaycanda ənənəvi enerjidən günəş və külək, su elektrik stansiyalarının istifadəyə verilməsində və qazla işləyən stansiyaların yeni enerjiyə keçidində yeni modulları tətbiq edəcək. Nəticədə “Eni” şirkətinin SOCAR-la bu istiqamətdə əməkdaşlığı isə ölkəmiz 2030-cu ilə qədər istixana qazlarının səviyyəsinin 35 faizə qədər azaldılması öhdəliyinin icrasında mühüm bir vasitə rolunu oynayacaq.

P.Şahbazov vurğulayıb ki, Azərbaycanla Mərkəzi Asiya, Türkiyə və Avropa arasında regional “yaşıl enerji” dəhlizi təşəbbüsləri Azərbaycan-İtaliya əlaqələri üçün də yeni perspektivlər açır. “İtaliyanın “CESI” şirkəti “Xəzər-Qara dəniz-Avropa və Mərkəzi Asiya-Azərbaycan yaşıl enerji dəhliz”i layihəsinin texniki-iqtisadi əsaslandırmalarının hazırlanmasında məsləhətçi kimi ölkəmizin yaxın tərəfdaşıdır.

**İtalyan şirkətləri azad ərazilərdə layihələr icra edir**

İtaliya şirkətləri Azərbaycanın azad edilmiş ərazilərində bərpaolunan enerji ilə bağlı həyata keçirilən layihələrə də böyük maraq göstərir. İtalyan investorları Qarabağ və Şərqi Zəngəzuru 10 min meqavatdan çox günəş və külək enerjisi potensialı yüksək alternativ mənbə hesab edir, “yaşıl enerji zonası” elan edilmiş bu ərazilərdə müştərək müəssisələr yaratmaq niyyətindədir. Bu bölgədə təmin edilmiş əlverişli sərmayə mühiti, eləcə də tətbiq olunan vergi-gömrük güzəştləri və iqtisadi stimullar onlarda motivasiyanı artırır. Artıq bir neçə italyan şirkəti bu ərazilərdə layihələrin icrasına başlayıb. Məsələn, “Ansaldo Energia” şirkəti azad edilmiş ərazilərdə yarımstansiyaların qurulmasında və enerji infrastrukturunun bərpasında yaxından iştirak edir. Bu, Azərbaycanın “yaşıl enerji” keçidi üzrə ortamüddətli strateji proqramlarında İtaliya ilə əməkdaşlığın yeni müstəviyə çatmasını təmin edəcək, ənənəvi enerji resurslarının təchizatı ilə yanaşı, gələcəyin gündəliyi olan “yaşıl enerji”nin investisiya platformasının yaradılmasına töhfə verəcək.

**Orta Dəhlizdə ölkəmizin yaxın müttəfiqi**

Qafqazın ən mühüm geostrateji nöqtəsində, Şimal və Cənub, Qərb və Şərq dəhlizlərinin qovuşuğunda yerləşən Azərbaycan Avropa ilə Asiya arasında körpü rolunu oynayır. Cənub Qaz Dəhlizinin ən axıcı qollarından biri olan Trans-Adriatik (TAP) qaz boru kəmərində də İtaliya təchizatçı kimi yer almaqdadır. Hazırda iki ölkə enerji-nəqliyat dəhlizlərində yeni gündəliyə uyğun olaraq tərəfdaşlıq imkanlarını daha da artırmaqda qərarlıdır.

Əməkdaşlığın gündəliyi olduqca genişdir, tərəflər birgə mübadilələri, sərmayə təşviqlərini və müştərək müəssisələrin sayını artırmaq niyyətindədir. Hazırda Azərbaycanda sənaye, tikinti, ticarət, kənd təsərrüfatı, rabitə, xidmət və digər sahələrdə 100-dən çox İtaliya şirkəti fəaliyyət göstərir. İki il əvvəl “Ansaldo Energia” ilə “AzərEnerji” arasında imzalanan və dəyəri 160 milyon avro olan müqavilə çərçivəsində İtaliya şirkətinin Azərbaycandakı yeni elektrik stansiyasını 4 qaz turbini ilə təchizatı nəzərdə tutulub. İtaliyanın qabaqcıl texnologiyaları və Azərbaycanın əlverişli biznes mühiti bu sahələrdə də birgə uğurlara imza atmağa imkan verir. Hərbi-texniki sahələr üzrə də əlaqələr inkişaf edir, İtaliyanın “Leonardo” şirkətinin Azərbaycan Silahlı Qüvvələrinin hərbi-texniki modernləşdirilməsi proqramı çərçivəsində Azərbaycana “C-27J Spartan” tipli hərbi nəqliyyat təyyarəsi tədarük edib.

Qeyd edək ki, Azərbaycan və İtaliya arasında İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın VI iclasının yekunlarına dair Protokol imzalanıb. Həmin sənəd və iclasda əldə edilən yeni razılaşmalar biznes ictimaiyyəti və investorlar üçün konkret layihələrdə praktiki fəaliyyəti təşviq etməklə, yeni layihələrin icrası baxımından mühüm əhəmiyyət kəsb edir.

***E.CƏFƏRLİ***

# Bakı - Vaşinqton əlaqələri: ikitərəfli əməkdaşlıq yüksəlir



Azərbaycanın 2020-ci il Vətən müharibəsindən sonra Cənubi Qafqazda yaratdığı geostrateji reallıqlar mühüm inkişaf perspektivləri yaradır. Yürüdülən siyasət, atılan addımlar beynəlxalq aləm tərəfindən ciddi izlənir - xüsusilə, ötən ilin avqustunda reallaşan Vaşinqton görüşlərinin ardından yaranan yeni situasiya olduqca pozitiv mesajlar verir. Zəngəzur dəhlizi (TRİPP) ideyası, Orta Dəhlizin dirçəldilməsi, enerji və yaşıl gündəlik layihələri - bütün bunlar Azərbaycanın sülh təşəbbüslərinin çoxşaxəli olduğunu ortaya qoyur. Paralel olaraq yaran vəziyyət ölkəmizi regionun strateji mərkəzinə çevirir.

Bu kontekstdə, xüsusilə, yeni bir mərhələyə qədəm qoymuş Azərbaycan-ABŞ münasibətlərində artıq davamlı yaxınlaşmalar, siyasi dialoqun inişafı nəzərə çarpır. Ölkəmizə səfər edən ABŞ rəsmiləri regional inkişafa verdiyimiz töhfələri yüksək dəyərləndirir, sülh istiqamətində qətiyyətli addımlarımıza qiymət verir. Bir neçə gün öncə ölkəmizdə səfərdə olan ABŞ Ticarət və İnkişaf Agentliyinin (USTDA) Yaxın Şərq, Şimali Afrika, Avropa və Avrasiya regionları üzrə regional direktoru Karl Kressin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Azərbaycan və ABŞ arasında ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti müzakirə olunub. Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədovla görüş zamanı iki ölkə arasında enerji, ticarət, TRIPP marşrutu da daxil olmaqla regional bağlantılar, iqtisadi sərmayə kimi sahələrdə ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti və ABŞ-ın özəl sektor nümayəndələrinin ölkədə müvafiq infrastruktur və logistika imkanları ilə tanış olması, əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

### Zəngəzur dəhlizi (TRİPP) reallaşır...

2025-ci ilin 8 avqustunda Vaşinqtonda keçirilmiş yüksək səviyyəli görüş regionun və bütövlükdə dünyanın siyasi gündəliyində tarixi hadisə kimi qiymətləndirilməlidir. ABŞ Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında aparılmış müzakirələr, imzalanmış sənədlər və əldə olunmuş razılaşmalar yalnız Cənubi Qafqazda yeni reallıqların təsbit olunmasına xidmət etmir, eyni zamanda, qlobal təhlükəsizlik, inteqrasiya və tərəqqi üçün də mühüm nəticələr vəd edir. Ən əsası, bu sənədlər Azərbaycanın strateji mövqelərinin gücləndirilməsinə, Azərbaycan-ABŞ tərəfdaşlığının yeni mərhələyə yüksəlməsinə və regional əməkdaşlığın daha dayanıqlı əsaslarda qurulmasına təkan verir.

Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz gediş-gəlişi təmin edəcək layihənin Vaşinqton razılaşmalarında xüsusi yer alması da diqqətçəkicidir. Zəngəzur dəhlizi (TRİPP) seqmentinin beynəlxalq dəstəklə təsdiqlənməsi ölkəmizin daxili logistik imkanlarının yüksək dəyərləndirilməsi olmaqla yanaşı, həm də dünyaya yeni bir strateji tranzit alternativi təqdim edir. Bu, iqtisadi, siyasi və təhlükəsizlik baxımından regionun inkişafına xidmət edəcək mühüm nailiyyətdir. Bu layihə vasitəsilə Azərbaycan yalnız Cənubi Qafqazda deyil, bütövlükdə Avrasiya məkanında mühüm logistik qovşağa çevriləcək - paralel olaraq, geniş bir coğrafiyada yeni inkişaf mərhələsi formalaşdıracaq.

### İki ölkə arasında strateji tərəfdaşlıq...

Görüşdə ötən il avqustun 8-də Vaşinqton Sülh Sammitindən sonra Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması istiqamətində qeyd edilən sahələr üzrə ayrı-ayrılıqda aparılmış ikitərəfli təmaslar və müzakirələr yüksək qiymətləndirilib.  Vurğulandığı kimi, 2025-ci il avqust görüşü zamanı imzalanan “Azərbaycan-ABŞ Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması haqqında Strateji İşçi Qrupunun yaradılması” Anlaşma Memorandumu iki ölkə arasında məzmun etibarı ilə yüksək olan tərəfdaşlığa yeni rəng qatır. ABŞ artıq Cənubi Qafqazda sabitlik, enerji, nəqliyyat, təhlükəsizlik məsələlərində məhz Bakı ilə strateji koordinasiya aparmağı prioritet sayır. Eyni zamanda, iki ölkə arasındakı əməkdaşlıq institusional çərçivəyə salınır - başqa sözlə, münasibətlərin inkişaf imkanları artıq siyasi bəyanatlarla deyil, konkret planlar, yol xəritələri və hüquqi mexanizmlərlə idarə olunacaq. ABŞ ilə Azərbaycan arasında dialoqun daha da genişlənməsi və şaxələnməsinə imkan yaradan bu sənəd təhlükəsizlik və müdafiə, enerji və yaşıl keçid, iqtisadiyyat və investisiya, regional sabitlik və nəqliyyat dəhlizləri, humanitar əlaqələrdə də yeni format müəyyənləşdirir.

### Azərbaycanın qlobal enerji təhlükəsizliyindəki rolu...

Bundan əlavə, görüşdə Azərbaycanın regionun enerji təhlükəsizliyində mühüm rolu, bərpaolunan enerji resurslarının inkişafının əhəmiyyəti, Orta Dəhlizdə ticarət marşrutlarının şaxələndirilməsi, habelə Azərbaycanda mövcud əlverişli biznes və investisiya mühiti və yeni əlaqələrin qurulması imkanları ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Azərbaycan artıq bir neçə ildir ki, Avropanın enerji təhlükəsizliyində əsas oyunçulardan biridir. Son illərdə ölkəmizin təbii qazı ilə təmin olunan ölkələrin sayı 14-ə çatıb və onların böyük əksəriyyəti Avropa dövlətləridir. Cənub Qaz Dəhlizi layihəsi, TANAP və TAP kəmərləri Azərbaycanı Avropanın enerji bazarında etibarlı tərəfdaş kimi möhkəmləndirib. Azərbaycanın enerji resurslarının sabit və davamlı şəkildə çatdırılması Avropa dövlətləri üçün strateji əhəmiyyət kəsb edir. Hazırda Azərbaycanın ümumi qaz ixracı 25 milyard kubmetr səviyyəsindədir, bunun da yarısı Avropa ölkələrinə nəql edilir.




Bütün müstəvilərdə müasir çağırışlara məhz müasir standartlar əsasında qarşılıq verən Azərbaycan təkcə ənənəvi enerji resursları ilə kifayətlənmir, həm də bərpaolunan enerji potensialını qlobal enerji gündəliyinə təqdim edir. Xüsusilə son illərdə yaşıl gündəlik çərçivəsində atılan addımlar Azərbaycanın yeni strateji üstünlüyünü formalaşdırır. Azərbaycanın nəhəng bərpaolunan enerji resurslarının inkişafı və Avropaya ötürülməsi üzrə tərəfdaş ölkələrlə həyata keçirdiyi fəaliyyətlər beynəlxalq səviyyədə xüsusi maraq doğurur. Qarabağ və Şərqi Zəngəzurda, həmçinin Xəzər dənizi sahillərində külək və günəş enerjisi layihələrinin reallaşdırılması Azərbaycanın enerji potensialını daha da artırır. Qara Dəniz Enerji sualtı kabelinin inşası isə ölkəmizin yaşıl enerjisini Avropaya ötürmək üçün strateji infrastruktur kimi mühüm rol oynayacaq. Bu layihə Avropa ilə Azərbaycan arasında enerji əməkdaşlığının yeni səhifəsini açır, eyni zamanda, qlobal enerji keçidində Azərbaycanın aparıcı rolunu təsdiqləyir.

***P.İSMAYILOV***

# Xarici kəlmələr milli kimliyimizi sarsıdır

Milli varlıq və birliyin möhkəmlənməsində dil mənəvi və mədəni zənginləşmə, elmi - texniki inkişaf üçün zəruri olan ünsiyyət vasitəsidir. Ana dili hər bir xalqın, hər bir millətin milli - mənəvi sərvəti, mənəviyyatının güzgüsüdür. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dil quruculuğu siyasəti xalqımızın ana dili olan Azərbaycan dilinin inkişafında, onun dünya dilləri içərisində öz layiqli yerini tutmasında mühüm rol oynamışdır. Bu siyasətin əsasını təşkil edən Azərbaycan dilinin qorunması və inkişaf etdirilməsi dövlətçiliyin əsas strateji məsələlərindəndir. Ölkədə dil siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin 23 may 2012-ci ildə imzaladığı "Azərbaycan dilinin qloballaşma şəraitində zamanının tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" Sərəncam Azərbaycan dilinin tətbiqi və inkişafı üçün yeni bir addımdır. Dövlətçiliyin əsas atributlarından biri olan dövlət dilinin qorunması dövlət siyasətinin tərkib hissəsi kimi həyata keçirilir.

Prezident İlham Əliyev istər Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqdakı çıxışında, istərsə də 2026-cı il yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibəsində ana dilimizin ən böyük təəssübkeşi kimi çıxış etmiş və dillə bağlı bir neçə mühüm aspektlərə toxunmuşdur. Bu aspektlərdən biri də Azərbaycan dilinin saflığının qorunması və dilimizdə yersiz alınma sözlərin işlədilməsidir. Dövlət başçısı qeyd edir ki, "bəzən bilərəkdən, bəzən bilməyərəkdən dilimizə daxil olan xarici kəlmələr - onlar dilimizi zənginləşdirmir və o kəlmələri istifadə edənləri daha ağıllı etmir. Çox dil bilmək yaxşıdır, mən də onun tərəfdarıyam. Amma sən xarici dillərdə lazım olan vaxtda danış, biz öz dilimizi qorumalıyıq. Xarici kəlmələr dilimizi pozur, zənginləşdirmir və milli kimliyimizi də sarsıdır, damcı-damcı, yavaş-yavaş. Bəlkə də özümüz heç buna fikir vermirik, damcı-damcı sarsıdır".

Xarici kəlmələrin milli dilimizə daxil olması bir çox fəaliyyət sahələrinə nüfuz edən qloballaşmanın dilə birbaşa təsir dairəsi ilə bağlıdır. Çünki cəmiyyətdə baş verən dəyişikliklər, ölkəmizin iqtisadi-siyasi həyatında, ictimai fikrində izlənilən proseslər, yeniliklər dilimizdən, o cümlədən dilin leksik sistemindən yan keçmir, dilin lüğət tərkibində, xüsusilə onun terminoloji bazasında müxtəlif dəyişmələrə səbəb olur. İctimai-siyasi dəyişikliklər və elmi-texniki inqilablarla səciyyələnən müasir dövrdə Azərbaycan dilinin terminoloji sisteminin zənginləşməsində və formalaşmasında rus dilinin təsir dairəsi azalmaqla bərabər, Avropa dillərindən alınmalar artmağa başlamışdır. Beynəlxalq iqtisadi-siyasi əlaqələrin inkişafı, Avropaya birbaşa çıxış dilin terminoloji qatına böyük təsir göstərir. Ona görə də Azərbaycan dilinin tətbiqi işinin təkmilləşməsi, dövlət dili haqqında qanunun yerinə yetirilməsi istiqamətində mühüm işlər aparılır. Dövlətçiliyin əsas atributlarından biri kimi dil müxtəlif istiqamətdə inkişaf etdirilir və milli dilin dövlət dili səviyyəsində inkişaf etdirilməsi ölkəmizin apardığı dil siyasətinin real nəticəsidir. Heç şübhəsiz, Azərbaycan mədəniyyəti, elmi inkişaf etdikcə, Azərbaycan dövləti möhkəmləndikcə Azərbaycan dili daha da zənginləşir, daha müasir, daha qlobal, analitik düşüncənin dilinə çevrilir. Dilin inkişafı milli kimliyimizin təsdiqidir. İlham Əliyevin qeyd etdiyi kimi, "Ancaq dil o amildir ki, milləti millət edir. Biz bütün dövrlər ərzində dilimizi qorumuşuq və bu gün danışdığımız Azərbaycan dili bizim ulu babalarımızın danışdığı Azərbaycan dilindən fərqlənmir. Bu, böyük nailiyyətdir. Mən hesab edirəm ki, xalqımızın böyüklüyüdür ki, biz başqa dillərin təsirinə düşməmişik. Düzdür, sovet vaxtında bizim leksikonumuza bəzi kəlmələr daxil olmuşdur. Mən beynəlxalq leksikondan gələn kəlmələri nəzərdə tutmuram. Amma prinsip etibarilə müstəqillik dövründə biz özümüzü onlardan təmizləyə bildik".

Müasir dövrdə beynəlxalq əlaqələrin genişlənməsi, iqtisadiyyatın sürətli inkişafı, ölkəmizdə KİV-lərin fəaliyyətinin, eləcə də internetin cəmiyyətin bütün həyatına nüfuz etməsi terminoloji sahəyə nəzarəti gücləndirmək zərurəti yaradır. Elmin, texnikanın, ictimai həyatın müxtəlif sahələrində terminoloji alınmalar müxtəlif dillər hesabına yaradılır və Azərbaycan dilinin lüğət tərkibində köklü dəyişikliklər baş verir. Bu, hər şeydən əvvəl Azərbaycan dilinin başqa dünya dilləri ilə birbaşa əlaqələri ilə bağlıdır. Əgər əvvəllər Azərbaycan dilinə terminlər, sözlər əsasən, rus dilindən və rus dili vasitəsilə keçirdisə, indi alınmalar vasitəçi dil olmadan dilimizə keçir. Daim yeniləşən və zənginləşən Azərbaycan dilində terminologiyanın yaradılması və zənginləşdirilməsi üçün ən əlverişli yol dilin daxili imkanları əsasında terminlərin, termin-söz birləşmələrinin yaradılmasıdır. Ona görə də elm və texnikanın müxtəlif sahələrində meydana gələn yeni anlayışların ifadəsi üçün terminlər yaradılarkən ən əvvəl ana dilinin lüğət tərkibinə nəzər salmaq, onun daxili imkanlarından səmərəli istifadə etmək lazımdır. Elm və texnikanın müxtəlif sahələrində terminlərin mühüm bir hissəsi ümumişlək sözlər əsasında yaranır. Bu zaman ümumişlək sözlər terminoloji funksiya daşıyaraq bütün elm sahələrində elmi anlayışı daha konkret ifadə etməyə xidmət edir. Elmi fikrin ifadəsi dəqiqlik və konkretlik tələb etdiyindən termin də konkret olmalıdır və elmi biliklərin inkişafı, informasiyaların asan yayılması üçün anlayışı dəqiq ifadə edən terminlərə üstünlük verilməlidir. Dilin daxilində işlənərək hər hansı bir ümumişlək anlayışı bildirən leksemin termin səciyyəsi qazanması üçün ümumişləklik çərçivəsindən çıxmalı, müəyyən elmi anlayışı dəqiq, konkret və birmənalı ifadə etməlidir. Xüsusilə, son dövrlərdə bazar iqtisadiyyatına keçidlə bağlı iqtisadi-siyasi terminologiyada yeni olan anlayışların terminlə ifadəsi daha çox ümumişlək dil vahidləri hesabına baş vermişdir. İqtisadi əlaqələr genişləndikcə, ictimai-siyasi münasibətlər, eləcə də elmi-texniki tərəqqi, dilin zənginləşməsini zəruri edir. Ünsiyyət vasitəsi olan dilin bugünkü inkişaf səviyyəsinə rekonstruktiv yanaşma təsdiqləyir ki, dilin inkişafı cəmiyyətin inkişaf səviyyəsi, ictimai-siyasi hadisələrlə, qlobal dəyişikliklərlə əlaqədardır. Məsələn, iqtisadiyyatla bağlı "bazar", "özəl", "özəlləşdirmə" leksik vahidləri məna genişlənməsi nəticəsində məhsuldar işlənən iqtisadi terminlərə çevrilmişdir. Tarixən bazar sözü alış-veriş üçün müəyyən edilmiş yer mənasını bildirirdisə, son dövrlərdə "iqtisadi bazar", "bazar münasibətləri", "bazar qiyməti" kimi anlayışları yeni məna kəsb edir. Bu baxımdan dilin ümumi leksikasına daxil olan sözlər elm və texnikanın müxtəlif sahələrində xüsusi funksiya daşıyaraq terminləşir. Məsələn, "tələ" sözü iqtisadiyyatda əməliyyat sistemində müəyyən tip kəsilmələri və ya müstəsna vəziyyətləri tutmağa imkan verən mexanizm, "yaxma" tibb sahəsində koronovirus diaqnozunun qoyulması üçün mikroskopiya üçün əşya şüşəsinin üzərində hazırlanmış müayinə materialı kimi istifadə olunur. Buna görə də dilin leksik qatına daxil olan ümumişlək sözləri, məişət sözləri, peşə-sənət sözləri, dialekt sözləri termin yaradıcılığında əsas mənbədir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Yəni bizim dilimiz böyük xalqın dilidir, bunu heç vaxt unutmamalıyıq və bizim dilimiz heç bir dilin kölgəsində ola bilməz. Bizim dilimiz zəngindir, sən istənilən ifadəni deyə bilərsən, istənilən şeiri yaza bilərsən".

Azərbaycan dilinin inkişafında dilin daxili imkanları əsas mənbə hesab edilərək ən mürəkkəb fikirlər ifadə olunur. Müasir dövrdə terminologiya ilə bağlı tədqiqatların müxtəlif aspektlərdən aparılması, terminologiya ilə ayrı-ayrı elmlər arasında qarşılıqlı əlaqələri və qarşılıqlı təsirləri gücləndirir. Qarşılıqlı inkişaf əsasında müxtəlif sahələrdə yeni anlayışların adlandırılmasında ümumişlək sözlər hesabına yaranan terminlər üstünlük təşkil edir. Məsələn, "ağıllı" ümumişlək sözdür, lakin son dövrlərdə bu söz terminləşərək - informatikada proqramlara, yaxud aparat vasitələrinə aid işlədildikdə verilən anda gözlənilməyən informasiyanı emal edə bilmək bacarığı mənasında işlənir. Eləcə də bu sözlə bağlı ağıllı bağlanma, ağıllı kart, ağıllı kənd, ağıllı telefon sözləri yaranmışdır.

Hazırda elmin müxtəlif sahələrində dilin daxili imkanları hesabına termin yaradıcılığı prosesi daha da artmışdır. Bunun üçün Azərbaycan dilinin geniş funksional imkanları vardır və dilin daxili imkanları əsasında yaranan terminlər terminoloji bazanın əsas hissəsini təşkil edir. Vaxtilə arxaizm və tarixizm adlandırılan külli miqdarda termin-söz dilə qayıtmış, dilin lüğət tərkibində möhkəmlənmişdir. Məsələn, çavuş, alay, yüzbaşı, gizir, taqım, fərari, cihad, soyqırım, ulus, icarə və s.

Müasir dövrdə dildə gedən əsas proses odur ki, sosial həyatda, cəmiyyətdə baş verən dəyişikliklərlə bağlı yaranan anlayışlar ümumişlək sözlərə əlavə məna verməklə, dialekt və şivə sözlərindən istifadə etməklə, köhnəlmiş sözlərin dilə qaytarılması ilə, milli və alınma sözlərə şəkilçi artırmaq, iki və daha artıq sözün birləşməsi ilə ifadə olunur. Milli termin yaradıcılığı ümumi ədəbi dilə əsaslanmalıdır. Bu, terminlərin asan başa düşülməsinə, tələffüzünə, tez yadda qalmasına, termin yaradıcılıq prosesinə müsbət təsir edir. Dilin ümumi leksik qatı kimi, onun terminoloji sistemində də yeniləşmə və zənginləşmə prosesi həmişə davam edir, terminoloji qat fasiləsiz olaraq inkişaf edir. Müasir dövrdə dilin daxili imkanları əsasında terminlər yaradılan zaman aşağıdakı istiqamətlər nəzərə alınır: dilin lüğət tərkibindəki ümumişlək sözlərin terminləşməsi; dialekt və şivələrdə işlənən, anlayışı dəqiq ifadə edən sözün seçilib terminləşməsi; qədim abidələrdə peşə, sənətkarlıqla bağlı anlayışları ifadə edən sözlərin terminləşməsi; ədəbi dilin söz yaradıcılığı üsullarından istifadə etməklə sözlərin terminləşməsi;

Bəzən Azərbaycan dilində terminlərin yaradılmasını başqa dillərə, xüsusən rus, ingilis dilinə məxsus ayrı-ayrı terminlər üçün qarşılıq müəyyənləşdirilməsi kimi başa düşürlər. Əslində isə terminlərin yaradılması dilin daxili inkişaf xüsusiyyətlərinə uyğun şəkildə aparılır və elmi dili zənginləşdirən əsas mənbə dilin özünün zəngin leksik qatıdır. Xalq dilinin zəngin söz ehtiyatı termin yaradıcılığının əsas mənbəyidir. Ədəbi dildə işlənən və ümumxalq dilindən gələn çimərlik, alışqan, asılqan, tutqac, sayğac, tıxac, nəfəslik kimi terminlərin sayı get-gedə artır. Ümumxalq dilinin zəngin söz xəzinəsində olan tələffüzü asan, ahəngdar sözləri götürüb onlardan termin yaradıcılığında istifadə etmək ən səmərəli yoldur. Bunun üçün Azərbaycan dilinin lüğət tərkibi əsasında terminlərin yaradılması ilə əlaqədar xalq dilinin dərindən öyrənilməsi zərurəti qarşıya çıxır. Terminlər yaradılan zaman xalq dili həssaslıqla tədqiq edilməli, öyrənilməlidir. Dildə yeni anlayışların adlandırılmasında, terminologiyanın inkişafında xalq dilinin əsas mənbə, tükənməz məxəz olduğu unudulmamalıdır. Ümumxalq danışıq dili və onun müxtəlif sözdüzəltmə vasitələri istər dilimizin tarixi inkişafı prosesində və istərsə də müasir dilimizdə yeni sözlərin yaranmasında əsas və tükənməz bir mənbədir. Yeni əmələ gələn məfhumları ifadə etmək üçün dialekt və şivələrdən geniş istifadə olunur. Müxtəlif elmi-texniki, eləcə də xalq təsərrüfatına və kənd təsərrüfatına aid terminlərin yaradılmasında dialektlər mühüm rol oynayır. Bu gün hamının işlətdiyi herik, qaysaq, dondurma, suvarma, səsudan şivələrdən ədəbi dilə keçmişdir. Dialektlərdə müxtəlif təsərrüfat sahələrinə aid olan zəngin söz ehtiyatı vardır. Bu material dilimizin bütün sahələrində getdikcə artan anlayışların xalq dili əsasında ifadəsi üçün imkan açır. Xüsusilə, ümumxalq dilinin dialektləri heyvandarlıq, üzümçülük, əkinçilik, bağçılıq, quşçuluq, toxumçuluq və s. sahələrə aid termin səciyyəli sözlərlə zəngindir. Dialekt leksikasının başlıca xüsusiyyətlərindən biri burada konkret məfhumların, anlayışları ifadə edən sözlərin geniş şəkildə işlədilməsidir. Əgər ədəbi dildə bu və ya digər əşya müəyyən bir sözlə adlanırsa, onun ayrı-ayrı hissələri xüsusi ada malik deyilsə, dialektlərdə isə həmin əşyanın ən kiçik hissəsinin belə adı və onu ifadə edən söz və termin mövcuddur.

Dialekt və şivələrin lüğət tərkibindəki terminoloji səciyyə daşıyan sözlər ədəbi dildə olan bu tip sözlərdən bir də onunla fərqlənir ki, dialekt və şivələrdə növ anlayışını bildirən sözlər daha çox yayılmışdır. Ədəbi dildə təbiət hadisələrinin, kənd təsərrüfatı alətlərinin, ya heyvanların yaşlarına, rənglərinə və yerişinə görə ümumi adları varsa, dialekt və şivələrimizin lüğət tərkibində bunların növlərinin, hissələrinin adları bütün təfərrüatı ilə verilir. Məsələn, ədəbi dildə yağışın, küləyin növlərini, yaşa və rəngə görə heyvan adlarını və s. bildirən bir-iki söz varsa, dialekt və şivələrimizdə bunların bütün növlərini əhatə edən sözlər vardır. Odur ki, dialekt və şivələrin leksikası ədəbi dilimiz üçün mühüm əhəmiyyət kəsb edən termin səciyyəli sözlərlə zəngindir. Termin yaradıcılığı ilə, terminoloji lüğətlərin tərtibi ilə məşğul olan mütəxəssislər, müəyyən məsələlərə dair elmi əsərlər yazan alimlər, elmi-texniki, ictimai-siyasi əsərlərin, xüsusən kənd təsərrüfatına aid ədəbiyyatın tərcüməsi ilə məşğul olan tərcüməçilər Azərbaycan dilində bir çox məfhumların adlarını tapmaqda çətinlik çəkirlər. Xalq dili bu sahədə onların ən yaxın köməkçisidir.

Terminlər yaradılarkən dilimizin dialekt və şivələrindən istifadə edilməsi zəruridir. Dialektlərdə dilin inkişafı üçün böyük əhəmiyyətə malik olan xalqın tarixi, yaşayış tərzi, adət və ənənəsi, məşğuliyyəti və s. ilə əlaqədar olan termin səciyyəli sözlər çoxdur. Odur ki, onların toplanılması və onlardan məqsədəuyğun surətdə istifadə edilməsi dilimizin zənginləşməsi və təkmilləşməsi üçün faydalıdır.

Həmişə təbii mühitlə əlaqədar olan insan müxtəlif obyektlərə, təbii hadisələrə ad vermiş və coğrafi terminlərinin yaranmasına səbəb olmuşdur. Ona görə də, coğrafiya elmində bu və ya digər landşaftı səciyyələndirdikdə yerli xalqın dilində olan sözlərdən istifadə edilir. Hal-hazırda xalqın dilində zəngin terminologiya vardır, bu da dilin terminologiyasının zənginləşməsi üçün mühüm mənbədir.

Ölkə ərazisində heyvandarlıq ən qədim məşğuliyyət və əsas sahələrdən biri olduğuna görə, həmin sahəyə aid terminlərin bir qismi dialekt və şivələrdə eyni forma və mənalarda işlənir; digər qismi isə heyvandarlığın bəzi səciyyəvi xüsusiyyətləri və yerli şəraitlə əlaqədar yalnız müəyyən bir dialekt və şivəyə mənsubdur. Dialektlərdə olan hər hansı bir söz bir neçə anlayışın yaranması üçün əsas ola bilər. Ona görə də müxtəlif sahələrlə bağlı anlayışları ifadə edən dialekt və ümumxalq dili sözlərinin bir hissəsi müasir ədəbi dildə möhkəmlənmiş və onu zənginləşdirmişdir. Lakin hələ də dialekt və şivələrimizdə, ümumxalq danışıq dilində işlənən çoxlu söz lüğətlərdə öz əksini tapmamışdır. Məsələn: insolyasiya yerinə - günvurma, tur yerinə - dağ keçisi, vəhşi öküz; ot yerləri yerinə - örüş; dağ düzənliyi sahələri yerinə - yaylım; kanareyka yerinə - sarıbülbül işlətmək mümkündür. Xalq dilinə mənsub olan belə sözlər dilimizin terminoloji leksikasında özünə möhkəm yer tuta və işləklik qazana bilər. Beləliklə, Azərbaycan dilinin lüğət tərkibi əsasında terminlər yaradılması ilə əlaqədar xalq dilinin toplanılması bir zəruriyyət kimi qarşıya çıxır.

Dialektlərdəki terminlərin əksəriyyəti həm səs tərkibi, həm də əşya və anlayışların ən kiçik hissələrini, müxtəlif xüsusiyyətlərini dəqiq ifadə etməsi ilə ədəbi dili zənginləşdirir. Bununla belə, lüğətlərdə dialekt leksikasından hələ lazımi dərəcədə istifadə olunmur. Məsələn: atların döş yoluxması əvəzinə xəfənək, keçi yunu əvəzinə qəzil, ot yerləri əvəzinə örüş, dırnaq xəstəlikləri əvəzinə keço, bağa, davax, qısabuynuz əvəzinə kola, ləzgi qoyunu əvəzinə herix, qarmaqlı çomaq əvəzinə koxa, yun cəngəsi əvəzinə əlçim və s. işlətmək mümkündür. Lakin dialektlərdə bu məfhumları daha dəqiq ifadə edən sözlər ola-ola adlandırmada izahlardan istifadə olunmuşdur.

Müasir Azərbaycan dilində kənd təsərrüfatı, coğrafiya, geologiya, həmçinin başqa sahələrə aid terminologiyanın təkmilləşməsi və zənginləşməsi üçün əsas mənbələrdən biri dialekt və şivələrdir. Azərbaycanda qədim zamanlardan əkinçilik, heyvandarlıq, bağçılıq, ipəkçilik, toxuculuq, sənətkarlıq kimi sahələr geniş inkişaf etdiyinə görə Azərbaycan dilinin dialektlərində müxtəlif peşə və sənətlərə aid, texniki alət və vasitələrlə bağlı sözlər işlədilmiş və indi də işlədilməkdədir. Ona görə də bu sahələrə aid anlayışların adlandırılmasında dialektlərdə işlədilən söz və ifadələrdən daha geniş istifadə olunmalıdır. Dövlət başçısının qeyd etdiyi kimi "Bunun çox dərin, necə deyərlər, layları var və dilimizi nə qədər çox qorusaq, nə qədər saf, təmiz saxlasaq, o qədər də millətimiz, necə deyərlər, saf olacaq və milli kimliyimiz həmişə bərqərar olacaq".

Uzun tarixi inkişaf yolu keçmiş Azərbaycan dilinin tarixi qatlarından istifadə etməklə, eləcə də leksik, morfoloji, sintaktik üsulla yeni sözlərin yaradılması dilin zənginləşdirilməsinə, dilin saflığına təminat verir. Bu çıxışlarda ana dilinin dövlət dili səviyyəsində inkişafına xalqın onun mənəvi problemlər kontekstində yanaşılaraq onun tətbiqi məsələləri üçün perspektivlər müəyyənləşdirilmişdir. Dil və milləti qarşılıqlı əlaqədə götürən, dili onun varlığının əsas göstəricilərindən biri hesab edən Azərbaycanın dövlət başçısı öz praktik fəaliyyəti ilə elmi-pedaqoji mühitdə Azərbaycan dilinin tətbiqi məsələlərini strateji məqsədlərdən hesab edir.



***Sayalı SADIQOVA,***
***Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının sədr müavini, filologiya elmləri doktoru, professor***

# Bakı və Abşeronun su təchizatında yeni dövr

Artan geosiyasi gərginliklər və intensivləşən iqlim dəyişmələri fonunda su təhlükəsizliyi hər bir ölkə üçün milli təhlükəsizliyin çox mühüm tərkib hissəsi qismində çıxış edir. Bu baxımdan, paytaxt Bakının və regionların su təminatının yaxşılaşdırılması hədəfinin ölkə gündəliyinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilməsi təqdirəlayiq haldır.

Bu siyasətin davamı olaraq Prezident İlham Əliyev yanvarın 12-də imzaladığı müvafiq sərəncamla "Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üçün Dövlət Proqramı"nı təsdiqləyib. Eyni zamanda, həmin tarixdə dövlət başçısının sədrliyi ilə Dövlət Proqramına həsr olunan müşavirə keçirilib. Müşavirədəki çıxışında son illərdə ölkəmizdə genişmiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsindən məmnunluğunu bildirən Prezident İlham Əliyev su təminatının önəminə xüsusi diqqət çəkib.

## Ölkə boyunca həyata keçirilən su layihələri

Azərbaycan dövlətinin ölkənin su təminatı məsələsinə həssas yanaşması təsadüfi deyil. Bu məsələnin aktuallığını artıran bir sıra ciddi amillər var. İlk növbədə onu qeyd edək ki, respublika üzrə yerüstü su ehtiyatlarının təqribən 75 faizi qonşu ölkələrdən daxilolmaların hesabına formalaşır və qlobal iqlim dəyişikliyi həmin su axımlarının həcminə də öz təsirini göstərir. Qonşu ölkələrdən, xüsusilə də Ermənistan ərazisindən daxil olan suların mütəmadi olaraq çirkləndirilməsi də çox ciddi problemdir. Eyni zamanda, qlobal iqlim dəyişmələri və orta temperaturun yüksəlməsi, yağıntıların və çaylarda sululuğun əhəmiyyətli dərəcədə azalması su ehtiyatlarının həcminə mənfi təsir göstərir. Digər bir vacib faktor isə Azərbaycanın davamlı inkişafı ilə bağlıdır. 2004-cü ildən başlayaraq Azərbaycanda ardıcıl olaraq regional inkişaf proqramları qəbul edilib. Həmin proqramların icrası çərçivəsində bölgələrimiz də iqtisadi güc mərkəzlərinə çevrilib, regionlarda iri təsərrüfatlar yaradılıb və beləliklə də, suvarma və içməli su təchizatı üzrə şəbəkələr genişləndirilib. Bütün bunların nəticəsi olaraq suya tələbat artıb. Bu kimi reallıqlar nəzərə alınmaqla son 22 ildə ölkəmizdə genişmiqyaslı su layihələrinin icrasının prioritetliyi təmin edilib. "Azərbaycan vətəndaşları yaxşı xatırlayırlar ki, vaxtilə bu, insanları narahat edən ən ciddi məsələlərdən biri idi. Bu məsələlər də tədricən öz həllini tapmışdır. Bu gün bizim əksər şəhərlərimizdə içməli su, kanalizasiya layihələri icra edilmişdir və bu proses davam etdirilir", - deyə Prezident İlham Əliyev müşavirədəki çıxışında vurğulayıb.



Son 22 ildə ölkəmizdə uzunmüddətli məqsədlərə hesablanan ardıcıl su siyasətindən bəhs edərkən bir sıra mühüm qərarların önəmini xüsusi qeyd edə bilərik. Dövlət başçısının 2020-ci il 15 aprel tarixli sərəncamı əsasında ölkə ərazisində su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə müvafiq komissiya yaradılıb. Eyni zamanda, Prezident İlham Əliyev tərəfindən su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair tədbirlər planı təsdiqlənib ki, buna uyğun olaraq ölkə üzrə genişmiqyaslı işlər həyata keçirilir. Həmçinin 2024-cü il 10 oktyabr tarixli sərəncamla 2024-2040-cı illər üzrə su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya təsdiqlənib. Su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi məqsədilə dövlət başçısının 2023-cü il 30 mart tarixli fərmanı ilə vahid qurum kimi Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yaradılıb.

Aparılan məqsədyönlü siyasətin tərkiib hissəsi olaraq son 22 ildə bütün ölkə boyunca genişmiqyaslı su layihələri reallaşdırılıb. Dövlət investisiya qoyuluşu hesabına həyata keçirilən belə layihələrinin statistikası kifayət qədər zəngindir. Bəhs olunan dövrdə "Taxtakörpü", "Şəmkirçay", "Tovuzçay", "Göytəpə", Naxçıvanda "Heydər Əliyev", "Vayxır" su anbarlarının, Oğuz-Qəbələ-Bakı su kəmərinin inşası, Samur-Abşeron su kəmərinin yenidən qurulması və əksər şəhər və rayon mərkəzlərinin içməli su və kanalizasiya xidmətləri ilə təchiz edilməsi respublikamızın su təhlükəsizliyini əhəmiyyətli dərəcədə möhkəmləndirib. Yeni inkişaf dövründə əsas məqsəd bu dayanıqlılığı daha da gücləndirməkdir : "Bizim məqsədimiz isə əhalini və sənayeni, kənd təsərrüfatını dayanıqlı su ilə təmin etməkdir, su mənbələrini qorumaqdır, su anbarlarının potensialını artırmaqdır, uçotu tam yaratmaqdır və mövsüm gələndə suları yığmaqdır ki, sonra il boyunca onlardan istifadə edək".



## Məqsəd dayanıqlı içməli su ilə təminatı yaratmaqdır

Yeni Dövlət Proqramının təsdiqlənməsi bir sıra vaciib amillərlə şərtlənir. Müşavirədə vurğulandığı kimi, Bakı şəhərindəki su və kanalizasiya sistemləri əsasən 1980-ci illərin sonuna qədər hazırlanıb. Həmin vaxtdan bu günə qədər yaşayış məntəqələrinin ərazisi 2,6 dəfə, əhalisi isə 2,1 dəfə artıb. Buna görə də mövcud infrastruktur artan həcmləri fiziki olaraq qəbul etmək iqtidarında deyil. Eyni zamanda, əsas magistral xətlərin istismar müddəti çoxdan başa çatıb, müasir nəzarət sistemləri də standartlara cavab vermir. Bunların çoxunun ömrünün 40-50 il olmasını nəzərə alsaq, onların istismar müddəti artıq başa çatıb. Əksər yağış suyu kollektorlarının kanalizasiya xətlərinə qoşulması ilə sistemlərdə əlavə yükləmələr yaranır. Vaxtilə Bakıda mövcud olan yağış sistemlərinin hamısı 1990-cı illərdə kanalizasiya kollektoruna çevrilib. Digər bir vacib məsələ itkilərlə bağlıdır. Hazırda su itkiləri 46 faizə yaxındır ki, bu da Avropa ölkələri ilə müqayisədə çox böyük həcmdir. Bu kimi reallıqlar Dövlət Proqramının təsdiqlənməsinin zəruriliyini bütün cəhətləri ilə ortaya qoyur.



Dövlət Proqramı müvafiq ərazilərdə su təchizatı və tullantı suları sistemləri infrastrukturunun inkişaf etdirilməsi, intensiv yağışlar zamanı subasma risklərinin azaldılması, fasiləsiz və dayanıqlı su təminatının gücləndirilməsi məqsədilə hazırlanıb. Proqram 2026-2035-ci illəri əhatə etməklə iki mərhələdə həyata keçiriləcək. 2026-2030-cu illəri əhatə edən birinci mərhələdə su və kanalizasiya infrastrukturu yenidən qurulacaq. 2031-2035-ci illəri əhatə edən ikinci mərhələdə yeni su anbarlarının və nasos stansiyalarının tikintisi, su təchizatının fasiləsizliyinin təmin olunması və müasir xidmət modellərinin tətbiqi prioritet istiqamətlər kimi müəyyən ediləcək. Dövlət Proqramında, həmçinin Bakı şəhərinin Baş Planı ilə uzlaşdırılaraq uzunmüddətli strateji hədəflər və icra mexanizmləri müəyyən edilib. Proqramın geniş əhatə dairəsinə malik olduğunu vurğulayan dövlət başçısı bildirib ki, Bakının, Sumqayıtın, Abşeron rayonunun və 64 yaşayış məntəqəsinin su təchizatı böyük dərəcədə yaxşılaşacaq, 200 kilometrdən çox magistral kanallar və o qədər paylayıcı şəbəkə tikiləcək və yenidən qurulacaq. Yeni su anbarları tikilməklə sayı 30-a yaxın olacaq. Sayğaclaşdırma 100 faizə çatdırılacaq. Fasiləsiz içməli su ilə təmin olunan əhali 70 faiz təşkil edirsə, proqramın icrası nəticəsində bu rəqəm 95 faizə çatacaq.

***Mübariz ABDULLAYEV***

# "ACWA Power": Azərbaycan Avropa və digər regionlar üçün "yaşıl enerji" habı olacaq



Azərbaycan inkişaf etmiş enerji sistemi və güclərin artırılması üçün əhəmiyyətli potensiala malik olan əsas ölkələrdən biridir ki, bu da ona həm Avropa, həm də digər regionlar üçün "yaşıl enerji" habına çevrilməyə imkan verir. Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətinin icraçı direktoru Məhəmməd Əbunayyan "AnewZ" telekanalına müsahibəsində bildirib. Şirkətin icraçı direktoru qeyd edib ki, şirkətin marağı təkcə Azərbaycanı deyil, perspektivdə "yaşıl enerji" mərkəzi kimi formalaşa biləcək daha geniş regionu əhatə edir: "Məhz buna görə "ACWA Power" burada günəş və külək enerjisi, enerji saxlanc sistemləri, "yaşıl hidrogen" layihələri, həmçinin son layihələrimizdə artıq əks olunduğu kimi suyun duzsuzlaşdırılmasını inkişaf etdirmək niyyətindədir".

M.Əbunayyan Azərbaycan Prezidenti İlham Əliyevə strateji baxış və liderlik üçün minnətdarlığını bildirib. O vurğulayıb ki, 240 MVt gücündə olan "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının (KES) rəsmi açılış mərasimi iri "yaşıl layihələr"in uğurlu inteqrasiyasının əyani nümunəsi olub: "İlham Əliyevin baxışı və liderliyi sayəsində biz bu miqyaslı layihəni həyata keçirə bildik".

M.Əbunayyan qeyd edib ki, bir çox ölkələrdə enerji keçidi yalnız alternativ mənbələr prizmasından baxıldığı halda, Prezident İlham Əliyev Azərbaycanda uğurla keçirilən COP29-da bu prosesə dair fərqli yanaşmanı aydın şəkildə çatdırıb. "Enerji keçidi bir enerji mənbəyinə üstünlük verilməsi demək deyil. Bu, bütün resursların optimallaşdırılması, onların bir-birini tamamlaması və siyasi təzyiq altında deyil, mütləq iqtisadi əsaslandırma ilə qlobal məqsədlərə nail olmaq üçün birgə fəaliyyəti deməkdir. Belə yanaşma keçidi dayanıqlı və səmərəli edir", - icraçı direktor bildirib.

Onun sözlərinə görə, məhz bu baxış Azərbaycana balanslaşdırılmış enerji sisteminin yaradılmasına və lazımi infrastrukturun inkişafına yönəlmiş kompleks enerji keçidi və "yaşıl enerji" strategiyasını formalaşdırmağa imkan verib. Şirkətin icraçı direktoru, həmçinin ölkədəki investisiya mühitini yüksək qiymətləndirərək onun şəffaf və investorlar üçün əlverişli olduğunu qeyd edib: "Azərbaycandakı hər hansı investor ədalətli münasibət və proqnozlaşdırıla bilən şərtlər əldə edir. Məhz buna görə də dünyanın hər yerindən investorlar buraya gəlir və təkcə "yaşıl enerji"yə deyil, digər sahələrə də investisiya yatırırlar".





M.Əbunayyanın sözlərinə görə, "ACWA Power" COVID-19 pandemiyası, Ukraynada müharibə və ciddi logistik çağırışlarla üst-üstə düşən çətin bir dövrdə Azərbaycanda fəaliyyətə başlayıb.

"Təchizat zəncirindəki problemlərə və 10 min kilometrdən artıq məsafəyə daşımaların həyata keçirilməsində çətinliklərinə baxmayaraq, Azərbaycan hökuməti bütün mərhələlərdə dəstək göstərərək etibarlı tərəfdaş kimi çıxış edib. Bu, investorlar üçün son dərəcə vacibdir", - o qeyd edib.

"Xızı-Abşeron" KES-in unikallığından danışan icraçı direktor vurğulayıb ki, layihə iki müstəqil elektrik stansiyasından ibarətdir və külək resurslarının müstəsna keyfiyyəti ilə seçilir: "Layihə real iqtisadi dəyərə malikdir: bütün mərhələlərdə yerli məzmundan istifadə olunur, podratçılar cəlb edilir, iş yerləri yaradılır və əhəmiyyətli əlavə dəyər formalaşır. Onun dəyəri təkcə "yaşıl enerji" istehsalında deyil, həm də insanlar üçün iqtisadi imkanların genişləndirilməsindədir".

240 MVt gücündə olan "Xızı-Abşeron" Külək Elektrik Stansiyası layihəsi Azərbaycanda müstəqil əsasda yaradılan ilk irimiqyaslı külək enerjisi layihəsidir və müstəqil enerji istehsalı (IPP) modeli əsasında həyata keçirilir. Bu layihə ölkənin bərpa olunan enerji mənbələrinə keçid prosesində mühüm rol oynayır.

Tikinti işləri başa çatdıqdan sonra külək parkı ildə 907 GVt/saat təmiz elektrik enerjisi istehsal edəcək ki, bu da 300 mindən çox ev təsərrüfatını elektrik enerjisi ilə təmin etməyə imkan verəcək. Bu, həmçinin ildə təxminən 400 min ton karbon qazı emissiyalarını azaltmağa şərait yaradacaq ki, bu da Azərbaycanın dayanıqlı inkişaf və dekarbonizasiya sahəsində milli hədəflərə nail olmasına töhfə verəcək.

# Türkiyə Yaxın Şərqdə hərbi mövqeyini gücləndirir

Türkiyə Pakistan və Səudiyyə Ərəbistanı arasında formalaşan hərbi-müdafiə alyansına qoşulmaq niyyətindədir. Bu barədə "Bloomberg" məlumat yayıb. Məlumatda bildirilir ki, ötən ilin sentyabrında imzalanmış razılaşma kollektiv müdafiə prinsipini nəzərdə tutur. Sənədə əsasən, alyans üzvlərindən birinə qarşı istənilən aqressiya bütün iştirakçılara hücum kimi qiymətləndirilir. Bu mexanizm NATO-nun məşhur 5-ci maddəsinə bənzər şəkildə tətbiq olunur. Ankaranın bu niyyəti Türkiyənin Qərb müttəfiqləri ilə çətin münasibətlər fonunda təhlükəsizlik tərəfdaşlıqlarını şaxələndirmək və əsas müsəlman ölkələri ilə əlaqələrini gücləndirmək üçün daha geniş strategiyasını əks etdirir.

Səudiyyə Ərəbistanı və Pakistan uzun müddətdir ki, təlim, kəşfiyyat paylaşımı və silah əməkdaşlığı da daxil olmaqla, sıx hərbi əməkdaşlıq saxlayırlar.



## Türkiyənin üzvlüyü alyansa əlavə güc qatacaq

Türkiyənin potensial üzvlüyü alyansın müdafiə qabiliyyətlərini gücləndirə və ona əlavə geosiyasi təsir göstərə bilər. Məlumatlara görə, Ankaranın bu alyansa qoşulması Yaxın Şərq və Cənubi Asiyada yeni təhlükəsizlik balansının formalaşmasına təsir göstərəcək. Analitiklər Türkiyənin mümkün iştirakını regional və qlobal miqyasda hərbi-siyasi çəkisini artırmaq cəhdi kimi dəyərləndirirlər.

Nəzərə almaq lazımdır ki, Türkiyə NATO-nun ikinci ən böyük ordusuna sahibdir. Digər vacib məqam odur ki, Türkiyə son 20 ildə öz hərbi gücünü əhəmiyyətli dərəcədə artırıb. Bu dövrdə Türkiyə çox sürətlə öz müdafiə sənayesini gücləndirib və ordusunu ən müasir hərbi texnika və atıcı silahlarla təmin edib. Hazırda Türkiyə dünyanın ən böyük pilotsuz uçuş aparatları (PUA) istehsalçısıdır. Ankara bundan sonra da diqqətini pilotsuz döyüş platformalarının işlənib hazırlanmasına yönəldəcək və ölkə üçün istənilən potensial təhdidin qarşısını almaq üçün çoxsəviyyəli "Polad günbəz" hava hücumundan müdafiə sistemi yaradacaq. Artıq uzunmənzilli hava hücumundan müdafiə sistemi olan "Siper Blok-1" Türkiyə Silahlı Qüvvələrinin arsenalına daxil edilib. "Siper Blok-1" ölkənin "Polad Günbəz" ("Çelik Kubbe") sisteminin yeni elementinə çevrilib. Türkiyə mediası yazır ki, sözügedən sistem ABŞ istehsalı olan "Patriot" və Rusiya istehsalı olan "S-400"ə bənzərdir.

Bundan başqa, Türkiyə sualtı qayıq layihəsini də uğurla reallaşdırır. Hələ 2015-ci ildə Yeni Tip Sualtı Qayıq Layihəsi çərçivəsində yerlilik göstəricisi yüksək olan "Type-214TN (Reis)" sinfinə məxsus sualtı qayıqların istehsalı-



na başlayan Türkiyə 2017-ci ilin iyun ayında MİLDEN (Milli Sualtı Qayıq) layihəsinə start verib. Layihələndirmə işlərinin başa çatdırılmasından sonra Gölcük Gəmiqayırma Zavodunda ilk gəminin istehsalına başlanması planlaşdırılıb. İlk gəminin 2031-ci ilə qədər tamamlanacağı gözlənilir.

Türkiyə ən yeni nəsil texniki göstəricilərə malik qırıcılar, helikopterlər və avtomobillər də istehsal edir. Türkiyə milli döyüş təyyarəsi "KAAN"ı istehsal etməklə dünyada 5-ci nəsil qırıcı istehsal edən 5 ölkədən biri sayılır. Xatırladaq ki, Türkiyənin "KAAN" milli hərbi təyyarəsi 2024-cü ilin fevralında ilk uçuşunu uğurla həyata keçirib. Bütün bunlar Türkiyənin hərbi sənayesinin mühüm nailiyyətləridir. Təbii ki, belə güclü hərbi potensiala sahib olan ölkə ilə digər dövlətlər hesablaşmalıdır. Lakin Ankara bu gücü ilə sadəcə öyünmür, dünyada sülh və təhlükəsizliyin təmin olunması təşəbbüslərini davam etdirir.

Bu baxımdan, Ankaranın Pakistan-Səudiyyə Ərəbistanı hərbi alyansına qoşulması Yaxın Şərqdə təhlükəsizlik və sabitlik üçün əhəmiyyətli təsir göstərə bilər.

## Şərqin "NATO"su yaranır?

Qeyd etdiyimiz kimi, Pakistanla Səudiyyə Ərəbistanı arasında ötən ilin sentyabrında imzalanmış sənəd hər hansı bir təcavüz halında qarşılıqlı müdafiəni, hərbi əməliyyatların birgə planlaşdırılmasını və müdafiə əməkdaşlığının gücləndirilməsini nəzərdə tutur. Saziş Pakistanın nüvə potensialını da əhatə edir. Saziş iki ölkə arasında uzunmüddətli strateji tərəfdaşlığı rəsmi şəkildə təsdiqləyir, bu da Yaxın Şərqdə mövcud gərginlik fonunda təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edir. Sazişin imzalanması mərasimi Ər-Riyada baş tutub, tədbirdə Səudiyyə Ərəbistanının taxt-tac varisi Məhəmməd bin Salman və Pakistanın Baş naziri Şahbaz Şərif iştirak edib. Pakistan ordusunun baş komandanı, feldmarşal Asim Munir də tədbirdə iştirak edib və o, ölkənin ən nüfuzlu siyasi fiqurlarından biri hesab olunur.

Ekspertlər hesab edirlər ki, bu alyans regionun təhlükəsizliyinə ciddi təsir göstərə və Körfəz dövlətlərinin strateji hesablamalarını dəyişdirə bilər. Müdafiə paktının son bir neçə il ərzində müzakirə edilməsinə baxmayaraq, onun Yaxın Şərqdə gərginliyin artması fonunda imzalanması faktı qlobal miqyasda diqqətdən kənarda qalmayıb. Körfəzin ərəb ölkələri, o cümlədən Səudiyyə Ərəbistanı hesab edir ki, ABŞ-la dərin əlaqələrə baxmayaraq, İslam ölkələri ilə də hərbi əməkdaşlığı möhkəmləndirmək vacibdir. Körfəz monarxiyaları ilə çox yaxşı əlaqələri olan və döyüşlərdə sınaqdan keçmiş orduya malik Pakistan bu kontekstdə təbii tərəfdaş kimi görünür.

Bununla belə, müəyyən dairələr iki ölkə arasında bu ittifaqı NATO-ya bənzər müsəlman hərbi alyansının əsası kimi dəyərləndirir. Türkiyənin sözügedən alyansa qoşulması isə bu prosesi sürətləndirə bilər.

*N.BAYRAMLI*

# İrəvan Türkiyə ilə sərhədə özü nəzarət edəcək

## Rusiya Axurik keçid məntəqəsini təhvil verir

Ermənistan hakimiyyəti yaxın vaxtlarda Türkiyə ilə sərhəddə yerləşən Axurik zastavasının keçid məntəqəsindən Rusiya sərhədçilərini çıxarmağı planlaşdırır. Bu barədə Ermənistan KİV-ləri məlumat yayıblar. Diplomatik dairələrə istinadən yayılan məlumatda bildirilir ki, Axurik zastavasındakı birbaşa keçid məntəqəsinin təhvil verilməsi ilə bağlı qərar artıq qəbul edilib və hətta bayraq dirəyi də quraşdırılıb. Bununla yanaşı, Rusiya sərhədçiləri zastavanın özündə qalacaqlar. Hazırda Türkiyə istiqamətində dəmir yolu xəttinin vəziyyəti qiymətləndirilir. Məlumata görə, Türkiyə tərəfi artıq Marqara keçid məntəqəsi ərazisində tikinti işlərinə başlayıb. Beləliklə, Türkiyə tərəfində tikintinin başlaması və Axurikin istifadəyə verilməsinin nəzərdə tutulması yaxın gələcəkdə sərhədin açılması niyyətinin ciddi olduğundan xəbər verir.

Qeyd edək ki, Ermənistan KİV-lərində yayılan məlumatlarda bildirilir ki, sərhəd pozuntularının sayı artıb. Rəsmi məlumatlara görə, 2024-cü ildə 160 qanunsuz sərhəd keçidi hadisəsi qeydə alınıb, 2023-cü ildə isə bu rəqəm 78 olub. Hadisələrin sayı 82 və ya 105,1 faiz artıb. Qeyd etmək lazımdır ki, cinayətkarlar adətən Ermənistandan tranzit nöqtəsi kimi istifadə edən Əfqanıstan və Banqladeş kimi üçüncü dünya ölkələrindəndirlər.

### Türkiyə - Ermənistan münasibətləri...

Qeyd edək ki, 2020-ci il Vətən müharibəsindən sonra bölgədə yaranan yeni siyasi-hərbi situasiya özündə mühüm reallıqları əks etdirdi. Belə ki, artıq işğal faktının aradan qaldırılması, Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini təmin etməsi regional münasibqamətində ilkin razılaşma əldə olundu - belə ki, üçüncü ölkə və diplomatik/viza sahəsində güzəştlər nəzərdə tutuldu. 2023-cü ilin yanvarın 1-dən isə Türkiyə ilə Ermənistan arasında hava yük daşıma əlaqəsi bərpa edildi, sərhədin müəyyən məqsədlərlə qismən istifadəsinə




də korrektəsini zəruri etdi. Bu mənada, Türkiyə ilə Ermənistan arasında münasibətlərə yenidən baxılması məsələsi də ortaya çıxdı. Qeyd edək ki, 2021-ci ilin sonundan etibarən başlanan prosesdə Türkiyə tərəfdən səfir Sərdar Kılıç, Ermənistan tərəfdən isə parlament sədrinin müavini Ruben Rubinyan əsas nümayəndə təyin olunublar. İlk görüş də məhz həmin ilin dekabrında reallaşıb. Daha sonra 2022-ci ilin 14 yanvarında Moskvada baş tutan görüş normallaşma prosesinin rəsmi başlanğıcına çevrildi. Həmin il fevralın 24-də və mayın 2-də Vyanada keçirilən görüşlərdə dialoq davam etdirildi. 2022-ci ilin iyulun 1-də reallaşan növbəti görüşdə sərhədin açılması istibaşlanıldı. Həmin ilin fevralında Türkiyədə baş verən təbii fəlakətlə bağlı Ermənistan istiqamətindən gələn humanitar yük keçiddən keçdi.

2024-cü il iyulun 30-da xüsusi nümayəndələr ilk dəfə sərhəddə - Marqara-Alican sərhəd keçid məntəqəsində 5-ci görüşü keçirdi. Bu görüşdə texniki məsələlərin qiymətləndirilməsi barədə razılıq əldə edildi. Növbəti görüşlər isə 2025-ci ilin sentyabrında İrəvanda, daha sonra Alican-Marqara sərhədkeçidində reallaşdı. Ötən il noyabrın 28-də isə Akyaka-Axurik sərhəd qapısı və Gümrü səviyyəsində texniki görüşlər baş tutdu. Qars-Gümrü dəmir yolunun bərpası və digər texniki məsələlər müzakirə edildi.

### Rusiya Ermənistanın sərhədlərindən çıxır...

Ermənistanın Rusiya sərhədçilərini öz sərhədlərindən kənarlaşdırması son bir neçə ildə intensivləşib. Qeyd edək ki, 1991-ci ildə Ermənistan müstəqillik əldə edən zaman respublikanın öz sərhədçiləri ki keçid məntəqəsini tərk ediblər. Belə ki, Ermənistan Milli Təhlükəsizlik Xidmətinin (MTX) sərhəd qoşunları 2025-ci ildən İranla sərhədin mühafizəsi, Ermənistanın Türkiyə və İranla sərhədlə-



yox idi və sərhədlərini müstəqil şəkildə qoruya bilmirdi. Rusiya Federasiyası ilə Ermənistan arasında xarici sərhədlərin birgə mühafizəsi haqqında müqavilə bağlandı - 1992-ci il sentyabrın 30-da İrəvanda "Rusiya Federasiyasının Ermənistan Respublikası ərazisində yerləşən Sərhəd Qoşunlarının statusu və onların fəaliyyət göstərməsi şərtləri haqqında" dövlətlərarası saziş imzalandı. Sənədə əsasən, Ermənistanın Türkiyə (uzunluğu - 345 km) və İranla (45 km) sərhədi Rusiya sərhədçiləri tərəfindən qorunurdu.

2025-ci il yanvarın 1-dən isə Rusiya sərhədçiləri Ermənistan və İran sərhədindərində Rusiya sərhədçiləri ilə birgə patrul xidməti həyata keçirmək üçün bütün məsuliyyəti öz üzərinə götürmüşdülər - daha sonra isə İran sərhədindəki keçid məntəqəsin Ermənistan Milli Təhlükəsizlik Xidmətinin əməkdaşlarına təhvil verildi.

2024-cü ilin yayında isə Rusiya sərhədçiləri "Zvartnots" hava limanını tərk etdilər. Qeyd edək ki, həmin ilin mayında Rusiya Prezidenti Vladimir Putinlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında baş tutan görüşdə Rusiya sərhədçilərinin avqust ayında İrəvandakı "Zvartnots" hava limanını tərk etmələri razılaşdırılmışdı.

### Sülhün imzalanması...

İndiki halda, Türkiyə ilə sərhəddin Ermənistan sərhədçiləri tərəfindən qorunması yaranan yeni situasiya ilə də əlaqələndirilir. Bəlli olduğu kimi, Ermənistanın Azərbaycan ilə sülh imzalayacağı təqdirdə, Türkiyə ilə də sərhədlərin açılması reallaşacaq - bu isə həm siyasi, həm də həm Türkiyə, həm Azərbaycan, həm də bütövlükdə dünya ilə əlaqələrinin yeni müstəviyə qədəm qoymasına şərait yaradacaq. Ümumiyyətlə, dəhlizin açılması yeni ticari-iqtisadi üstünlüklər yaradır ki, İrəvan da bu üstünlüklərdən faydalana biləcək - əlahiddə olaraq, həm də



iqtisadi cəhətdən yeni situasiya formalaşdırır. Azərbaycan ilə Ermənistan arasında sülhün imzalanması bütövlükdə həm Bakı-İrəvan, həm də Ankara-İrəvan münasibətlərinin normallaşmasına gedən yoldur. Qeyd etmək lazımdır ki, indiki məqamda İrəvan həm də Türkiyə ilə münasibətləri yeni çərçivəyə salmaqda maraqlı olmalıdır - çünki Türkiyə ilə Azərbaycanın strateji əməkdaşlığı bölgədə yeni təhlükəsizlik arxitekturası yaratmaqla yanaşı, həm də bölgənin gələcək inkişafının əsas formulunun müəllifi sayılır.

Paralel olaraq, Zəngəzur dəhlizinin (TRİPP) açılması ilə bağlı əldə olunan razılaşma bu məsələdə önəmli ştrixlərdəndir. Dəhlizin açılması Ermənistanın Türkiyə ilə də normal iqtisadi-siyasi əlaqələrə malik olacağı təqdirdə Şərq-Qərb logistik ticarət və yükdaşıma yoluna qoşula biləcək. Çünki Zəngəzur dəhlizi (TRİPP) Şərq-Qərb marşrutu üzərində ən qısa yol kimi əhəmiyyətə daşıyır və dəhlizin coğrafi imkanları olduqca genişdir.

Beləliklə, bölgədə ümumən yeni münasibətlər sisteminin qurulması birmənalı şəkildə Ermənistan üçün mühüm fürsətdir - Azərbaycanla imzalanacaq sülh İrəvanı Bakı ilə yanaşı, Türkiyə ilə də münasibətlərin normallaşması prosesində mühüm mərhələyə daşıyacaq. Türkiyə ilə münasibətlərin yaradılması isə Ermənistan üçün mühüm dividendlər vəd edir.

*P.İSMAYILOV*

# Baş nazir baş keşişə qarşı

## Erməni Apostol Kilsəsinin "xilas planı" razılaşdırıldı



*Mübariz FEYİZLİ*

Son vaxtlaradək Ermənistan cəmiyyətinə kilsə mifi hakim kəsilmişdi. Ölkə xaricindəki və daxildəki bəzi qüvvələr də bundan sui-istifadə etməklə din xadimləri ilə çirkin işbirliyinə girərək kilsədən hakimiyyətə qarşı təzyiq aləti kimi istifadə edirdilər. Beləliklə də, Ermənistan hakimiyyəti öz siyasətini böyük dərəcədə kilsənin yazılmamış qanunlarını, xüsusilə də baş keşişdən gələn mesajları nəzərə almaqla həyata keçirirdi. Bunun əksini təsəvvür etmək isə iqtidar üçün acı sona gətirib çıxara bilərdi. Sirr deyil ki, 1999-cu ildən Apostol Kilsəsinə rəhbərlik edən katolikos II Qareginə (dünyəvi adı Ktriç Nersisyan) qarşı çıxmaq linç olmaqla üzləşmək deməkdir. Təbii ki, heç kəs də belə bir kədərli taleyi yaşamaq istəmirdi.

Kilsədən isə Ermənistan cəmiyyətinə və hakimiyyətinə heç bir halda xoş niyyətə əsaslanan ideyalar ötürülmürdü. Bu ideyalar bir qayda olaraq mənfur səciyyə daşıyır və ermənilərdə əsas etibarı ilə də Azərbaycana və Türkiyəyə qarşı nifrət aşılamağı hədəfləyirdi. Məhz bu mənfur ideyalarla "silahlanan" Ermənistan dövlət və cəmiyyət olaraq Azərbaycana qarşı işğalçılıq siyasəti yürüdürdü.

Artıq Ermənistanda kilsə və baş keşişlə bağlı vəziyyət dəyişməkdədir. Baş nazir Nikol Paşinyan müxalifətlə yanaşı, Apostol Kilsəsinin baş keşişinə qarşı, sözün əsl mənasında, savaş cəbhəsi açıb.

Xatırlayaq ki, baş nazir ilə katalikos arasında "döyüş" Paşinyanın kilsə rəhbərinin qaranlıq keçmişi ilə bağlı indiyədək heç kəsin açıb-ağartmağa cürət etmədiyi faktları ictimailəşdirməklə başlamışdı. Təqdim olunan faktlardan aydın olur ki, II Qaregin kilsə andını pozub, onun hamıdan gizlətdiyi uşağı var. Beləliklə də, insanlarda katalikosun "müqəddəsliyinə" inam sarsıldı. Təsadüfi deyildir ki, II Qareginin xalqı hakimiyyətə qarşı inqilab çağırışı səmərəsiz oldu və cəmiyyət onun çağırışını dəstəkləmədi. Bu, kilsənin tarixində görünməmiş bir haldır və o anlama gəlir ki, N.Paşinyanın atdığı ox hədəfə dəyib.



Bunun ardınca N.Paşinyanın digər həmlələrə keçd etmək imkanı yarandı. Bir neçə fakta nəzər salaq. Ötən ilin son ongünlüyündə Ermənistan hökuməti Torpaq Məcəlləsinə Apostol Kilsəsini torpaq sahələrini təmənnasız əldə etmək hüququndan məhrum edən düzəlişi təsdiqlədi. Ermənistan hökuməti həmçinin 2011-ci il yanvar ayından kilsəyə məxsus "Şoqakat" kanalının yayımını həyata keçirən "Mənəvi-mədəni ictimai televiziya şirkəti" QSC-ni ləğv edib . Qərara əsasən, Ərazi İdarəetmə və İnfrastruktur Nazirliyinin Dövlət Əmlakının İdarə Edilməsi Komitəsinin sədri qərar qüvvəyə mindikdən sonra 15 gün ərzində ləğvetmə komissiyası yaratmalı və şirkətin fəaliyyətinin dayandırılması ilə bağlı bütün prosedurların həyata keçirilməsini təmin etməlidir. Eyni zamanda, bir neçə keşişin həbsə alınması da hakimiyyətin kilsəyə qarşı planının tərkib hissəsi sayıla bilər. Son olaraq İrəvanın birinci instansiya məhkəməsi ötən ilin dekabr ayında Erməni Apostol Kilsəsinin Araqasotn yeparxiyasının rəhbəri, yepiskop Mkrtıç Proşyanın həbs müddətini daha iki ay uzadıb. Xatırladaq ki, ötən il oktyabrın 15-də biri Araqasotn yeparxiyasının rəhbəri yepiskop Mkrtıç Proşyan olmaqla ümumilikdə 13 din xadimi saxlanılıb. N.Paşinyan həmçinin kilsənin maliyyə şəffaflığının artırılmasının, o cümlədən əmlakdan istifadə məsələlərinin zəruriliyini dəfələrlə gündəmə gətirib.

Beləliklə, N.Paşinyan çox qısa müddətdə kilsə ətrafında həlqəni əhəmiyyətli dərəcədə daraltmağa nail olub. Onun son məqsədi isə kilsə qanununu pozan, erməniləri aldadan II Qaregini rüsvayçı şəkildə vəzifəsindən tamam uzaqlaşdırmağa nail olmaqdır. Deyə bilərik ki, Baş nazirin baş keşişə qarşı mübarizəsi yeni və həlledici mərhələyə keçid alıb. Bu mərhələdə N.Paşinyan özünəməxsus "uzaqgörənlik" nümayiş etdirməklə katalikosa qarşı mübarizəyə keşişləri də cəlb etməyə nail olub. Artıq 10 üsyankar yepiskop bu mübarizədə Baş nazirlə bir yerdədir.

Şübhəsiz ki, din xadimlərinin Baş nazirin çağırışlarına qoşulmaları onun baş keşişə qarşı apardığı mübarizənin səmərəliliyini daha da artıracaq. Bunun təsdiqi olaraq elə bugünlərdə nazirlə üsyankar yepiskoplar Apostol Kilsəsinin təkmilləşdirilməsi və yaxud yenilənməsi ilə bağlı "yol xəritəsi" adlandırılan sənədi razılaşdırıblar. Belə ki, II Qareginin istefasını tələb edən din xadimləri Baş nazirin iqamətgahına gələrək sənədi bir-bir imzalayıblar. İdeya müəllifinin N.Paşinyanın özü olduğu sənəddə kilsənin hazırkı rəhbərinin vəzifədən kənarlaşdırılması, patriarxal taxt-tacın yerli nümayəndələrinin seçilməsi, kilsə nizamnaməsinin qəbul edilməsi, bütün ermənilərin yeni katolikosunun seçilməsi kimi məsələlər yer alır. Eyni zamanda, din xadimlərinin vicdanlı davranış qaydaları və onların həyata keçirilməsi üçün təminatlar, maliyyə şəffaflığının artırılması, kilsənin siyasətdən kənar olmasının zəruriliyi, kilsə fəaliyyətinin Ermənistanın vergi qanunvericiliyinə uyğunluğu da "yol xəritəsi" ilə razılaşdırılan tələblər sırasındadır. Həmçinin gələcəkdə kilsənin vahid əməkhaqqı sisteminə qoşulması və digər məqsədlər hədəflənir.

Əsas hədəf isə katolikosun tutduğu vəzifədən getməsidir. Nikol Paşinyan bildirib ki, Ktriç Nersisyan Ermənistanın üçüncü prezidenti Serj Sarkisyan kimi getməli olacaq. "Deyirlər ki, Ktriç Nersisyan getmək niyyətində deyil. Biz elə etməyi planlaşdırırıq ki, o, öz niyyətini dəyişsin. Heç kimin getmək niyyəti olmur. Serj Sarkisyanın da belə bir (2018-ci ilin yazında - red.) niyyəti yox idi, lakin o, getmək məcburiyyətində qaldı. Eyni məsələ Ktriç Nersisyana da aiddir", - deyə Baş nazir vurğulayıb.

N.Paşinyan bu gün II Qareginin və kilsənin ali dairələrinin sektantlıq məntiqi ilə hərəkət etdiklərinə xüsusi diqqət çəkib. Onun sözlərinə görə, kilsəni parçalanmadan azad etmək və xalqa qaytarmaq zamanı çatıb. Nikol Paşinyanın fikrincə, yepiskoplar uzun müddət kobud səhvə yol veriblər, kilsəni onu parçalayanlarla tək buraxıblar. O, xalqı ayinlərdə iştirak etməyə, ruhaniləri kilsə islahatları gündəliyinə qoşulmağa və kilsələrdə ayinlər zamanı II Qareginin adını çəkməməyə çağıraraq deyib: "Bu, İsa Məsihin adı ilə, xalq tərəfindən, milli kilsə şurası vasitəsilə seçilmiş və öz çağırışı, həyat tərzi, dünyagörüşü və ruhunun məzmunu baxımından legitim katolikos olana qədər edilməlidir".

Nikol Paşinyan həmçinin kilsənin arxasında gizlənib hakimiyyətə qarşı planlar quran müxalifət təmsilçilərinə də səslənib. "Bəziləri erməni kilsəsindən Ermənistana qarşı fəaliyyətlər üçün dayaq nöqtəsi kimi istifadə etməyə çalışırlar. Biz buna imkan verməyəcəyik", - deyə Baş nazir vurğulayıb.

## Rusiyaya qarşı yeni sanksiyalar qəbul edilə bilər



Fevralın 24-dək Avropa İttifaqının Moskvaya qarşı yeni sanksiyalar paketi, o cümlədən Rusiyaya lüks məhsulların ixracına daha sərt qadağa barədə razılıq əldə oluna bilər. "Euractiv" nəşri bu barədə avropalı diplomata istinadla məlumat yayıb.Məlumata görə, Finlandiya və İsveç Avropa Komissiyasını Rusiyanın neft tankerlərinə xidmət göstərilməsini qanunsuz elan etməyə və bu ölkədən gübrə idxalına kvotaları azaltmağa çağırıb. Nəşr qeyd edir ki, Rusiyaya 300 avrodan bahalı lüks məhsulların ixracı artıq qadağan edilib, buna baxmayaraq, həmin malların bu ölkəyə tədarükü ilə bağlı müxtəlif sxemlər mövcuddur.

Avropa İttifaqının (Aİ) beynəlxalq münasibətlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Josep Borrell bildirib ki, yeni sanksiyalar paketi müzakirə edilib və yekdilliklə razılaşdırılıb. Hazırda sənədin son texniki detalları yekunlaşmaqdadır.

"EU Observer" portalının məlumatına əsasən, Aİ növbəti anti-Rusiya sanksiyalar paketinə 193 fiziki və hüquqi şəxs daxil ola bilər.

## Vaşinqton Tehrana yeni sanksiyaları nəzərdən keçirir



ABŞ İranın enerji və bank sektorlarına, eləcə də ölkədəki əsas şəxslərə qarşı yeni sanksiyaların tətbiqini nəzərdən keçirir. AZƏRTAC xəbər verir ki, ABC telekanalı bu barədə Ağ Ev administrasiyasındakı mənbəyə istinadla məlumat yayıb.

Bundan əlavə, ABŞ administrasiyasının bir neçə sabiq məmuru bildirib ki, həm genişmiqyaslı hərbi hücumlara, həm də İranın konkret liderlərinə və ya polis infrastrukturuna qarşı daha dəqiq zərbələrə dair planlar Prezident Donald Trampa təqdim ediləcək. Tramp İranla əməkdaşlıq edən bütün ölkələrə 25 faiz əlavə rüsum tətbiq edib. Ağ Ev rəhbəri Tehrana qarşı güc tətbiqini də istisna etməyib.

## Dünya maliyyəçiləri ÜDM-dən imtina məsələsini müzakirə edəcəklər



BMT-nin təşəbbüsü ilə bu həftə dünyanın aparıcı maliyyəçiləri rifah və inkişaf meyarı kimi ÜDM-dən imtina olunması məsələsini müzakirə edəcəklər. Bu barədə təşkilatın məlumatında bildirilib. Baş katib Antonio Quterreşin BMT-nin Ticarət və İnkişaf Agentliyi (UNCTAD) və digər tərəfdaşlar tərəfindən dəstəklənən "ÜDM-dən kənarda" təşəbbüsü çərçivəsində qlobal siyasətin Qlobal Daxili Məhsul məlumatlarından həddindən artıq asılı olması barədə xəbərdarlığını aparıcı iqtisadçılar da qəbul edirlər. Baş katib bildirib: "Hər gün inkişafın iqtisadi, sosial və ekoloji ölçülərini tarazlaşdıra bilmədiyimizin ağır nəticələrinin şahidi oluruq. ÜDM-dən kənara çıxmaq indi və gələcəkdə hər kəs üçün vacib olan amillərə - insan rifahına dəyər verən iqtisadi sistem qurmaq üçün vacibdir".

Bir çox yüksəkvəzifəli iqtisadçı da onun bu fikri ilə razıdır. Onlar hesab edirlər ki, ÜDM həyatı dəstəkləyən və insanların rifahına töhfə verən fəaliyyətlərdən daha çox planeti tükəndirən işlərin təqdir edilməsi vasitəsinə çevrilib. Yəni burada bəşəriyyətin gələcəyi üçün mühüm olan amillər arxa plana atılır.

Yüksək Səviyyəli Ekspert Qrupunun bəyanatında qeyd olunur ki, bu gərginlik iqlim dəyişikliyi, pisləşən ekosistemlər və biomüxtəlifliyin itirilməsi, artan münaqişələr, ərzaq təhlükəsizliyi və tarixi bərabərsizliklər kontekstində getdikcə daha da kəskinləşir.

Bu həftənin sonunda Cenevrədə keçiriləcək müzakirələr ekspert qrupunun ötən ilin may ayında təsis edildiyi vaxtdan bəri ikinci görüşü olacaq; onun məqsədlərinə qlobal idarətməni daha inklüziv və effektiv etmək daxildir. Qrupun həll etməli olduğu çətinliyi qeyd edən iqtisadçılar bildirirlər ki, müasir dünyada rifah və inkişaf amilləri ÜDM meyarı ilə uyğun gəlmir.

Qeyd edək ki, müzakirələrə 10-dan çox tanınmış iqtisadçı, o cümlədən Nobel Mükafatı laureatı Cozef Stiqlitz, hind iqtisadçısı Kauşik Basu və kapital üzrə ekspert Nora Lustiq daxildirlər.

***Nardar***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




*Yeganə BAYRAMOVA*

# Düşüncənin qüdrəti...




Yanlış ilə doğrunu seçmək, hansısa suallara cavab tapmaq üçün məntiqimiz işə düşür. Məlumdur ki, hər bir insana lazım olan əsas bacarıqlardan biri düşünmək qabiliyyətidir. Çünki düşünmə bacarığı və zehni təfəkkür güclüdürsə, öyrənmə qabiliyyəti də yüksək olur. Bu durum beynin analitik düşünmə qabiliyyətini artırır, hətta insanı həyatda rəqiblərindən daha üstün edir.

Yanvarın 14-ü Dünya Məntiq Günüdür. Bu gün 2019-cu ilin noyabr ayından başlayaraq hər il 14 yanvar tarixində qeyd olunan beynəlxalq bir gündür. Dünya Məntiq Gününü qeyd etmək üçün seçilən tarix, amerikalı məntiqçi Kurt Hödelin ölüm tarixinə və iyirminci əsrin ən görkəmli məntiqçilərindən olan Alfred Tarskinin doğum tarixinə uyğundur.

Təbii ki, zehni təfəkkürün güclü olması insanların istər iş həyatında, istərsə də şəxsi münasibətlərində vacib amillərdəndir. Məntiqi təfəkkürü gücləndirməyin isə bir çox yolları var. Məlumdur ki, məntiqli və ağıllı insanların səhv etmək ehtimalı daha azdır. Məntiqli düşünən uşaqlar səbəb-nəticə əlaqəsi qura bildikləri üçün dərslərində daha uğurlu olurlar. Eyni zamanda, məntiqi güclü olan şəxslər işlərində, biznes fəaliyyətlərində uğur qazanırlar.

**Məntiqimizi gücləndirmək üçün..**

Mütəxəssislər məntiqin gücləndirilməsi üçün bir sıra amilləri nəzərə almağı məsləhət görürlər. Belə ki, zehni qabiliyyətin gücləndirilməsi üçün bəzi qaydalara əməl etmək vacibdir.

**Fiziki hərəkət beyini böyüdür**

Həqiqətən də belədir, hərəkət etdikdə beynimiz böyüyür. Hərəkət sinapsları artırır, beyində daha çox əlaqənin yaranmasına səbəb olur və əlavə hüceyrələr əmələ gəlməsinə kömək olur. Fiziki hərəkəti yeni mühit kəşf etmək, işlərimizi görmək və ya ideyalarımızı paylaşmaqla birləşdirdikdə, yeni sinir hüceyrələri düzgün halqa formalaşdıracaq.



**Hərəkətdə ikən öyrənin...**

Bu üsul araşdırmalar nəticəsində gəlinən qənaətlə yanaşı, aktyorların da istifadə etdiyi bir vasitədir. Hansısa məlumatı yadda saxlamağa çalışarkən hərəkət etsəniz, istəyiniz uğurlu alınacaq. Təqdimatınız və ya nitqiniz varsa, yaxud gün ərzində görməli olduğunuz işləri yadda saxlamaq istəyirsinizsə, otaqda var-gəl etməyi, hətta rəqs etməyi sınamağa dəyər.

**Düzgün qidalar qəbul edin**

Qəbul etdiyimiz şəkər və enerjinin təxminən 20 faizi beynimizə gedərək, beyin fəaliyyətini qlükoza səviyyəsindən asılı edir. Əgər şəkər səviyyəsinə nəzarət olunmazsa, çaşqınlıq hiss edərsiniz. Sevdiyiniz qidaları yeyən zaman beyinin mükafat hissəsində dopamin adlı kimyəvi maddə ifraz olunur ki, yedikcə həzz hissi bəxş edir. Lakin beyin ilə yanaşı, bağırsağınızı da düzgün qidalarla təmin etməlisiniz. İnsanın həzm sistemində 100 trilyondan çox mikrob yaşayır. Onlar bağırsaq vasitəsilə beyinlə birbaşa əlaqədə olurlar və buna görə də beyinin sağlamlığı üçün həmin mikrobların böyük əhəmiyyəti var.

Beyin hüceyrələri yağdan təşkil olunduğu üçün pəhrizinizdən yağı çıxarmamaq vacibdir. Ləpə və toxumlar, avokado və balıq, rozmarin və sarıkökün tərkibindəki əsas yağ turşuları beyin üçün çox xeyirlidir. Çalışın yeməyi tək yeməyəsiniz - şən dostluq və ya ailə mühitində qidalanmaq məntiqiniz və beyniniz üçün əhəmiyyətli olan sağlam pəhrizi faydalı edir.

**Hər şeydən uzaqlaşın**

İnsana fövqəladə vəziyyətdə reaksiya müddətini sürətli etmək üçün az da olsa stress təcrübəsi gərəkdir. Bu zaman, bizi enerjili edən və köklənmək qabiliyyətini artıran kortisol hormonu ifraz olunur. Lakin uzunmüddətli narahatlıq və stress beyin üçün zəhərlidir. Bu səbəbdən də aradabir hər şeydən uzaqlaşıb, beynin həmin hissəsini istirahətlə təmin etmək son dərəcə vacibdir. Və bu zaman, əslində, beyinin başqa bir hissəsini məşq etdirmiş olursunuz.

**Musiqisiz qalmayın**

Araşdırmalar göstərir ki, musiqi beyinə unikal bir formada təkan verərək məntiqin güclənməsinə şərait yaradır. Musiqi dinləyən və ya ifa edən birinin beyninə baxsanız, bütün orqanın aktiv olduğunu görərsiniz. Musiqi ümumi zəkanı artıra bilər və demensiya kimi xəstəliklər zamanı ən son itən adətən musiqi yaddaşı olur.

**Səhər yaxşı oyanın**

Hamımız yuxunun əhəmiyyətini bilirik. Beş saatdan az yuxu insanı keyləşdirdiyi kimi, 10 saatdan artıq yuxu da beyinə mənfi təsir göstərir. Amma gün ərzində enerji dolu qalmaq üçün mühüm faktor yuxudan necə oyanmağımızdır.

Qaranlıq otaqda yatıb, tədricən artan işıqda ayılmaq ən ideal vasitədir. Belə ki, işıq bağlı göz qapaqlarına sirayət etdikcə beyini hazırlayır və bizdə oyanma reaksiyasını artırır. Oyanan zaman bədəndəki kortizol hormonunun sayı beyinin gün ərzində fəaliyyətinə təsir göstərir.



*Yeganə BAYRAMOVA*

# Dondurulmuş meyvələr...

## Nə dərəcədə sağlamdır?

Son zamanlar qurudulmuş və dondurulmuş meyvələr həm evlərimizdə, həm də restoran və şənlik süfrələrində geniş yayılıb. Bu məhsullar "faydalı qəlyanaltı" kimi təqdim olunur, onların hansısa faydasının olub-olmaması isə müəyyən fikir ayrılıqları yaradır.  Bəzi araşdırmalara görə, dondurma prosesində qidaların iy, dad və ya qida dəyərində heç bir dəyişiklik olmadığı üçün qidaları saxlamaq üçün ən yaxşı üsullardan biri dondurmaq hesab olunur. Dondurulmuş qidaların müsbət cəhətləri kimi bunlar əsas gətirilir: Təbii halda qorunduqları üçün daha faydalıdır. Lazımi şərtlər yerinə yetirildikdə uzun müddət saxlamaq mümkündür. Yuyulub, təmizlənmiş halda olduğu üçün istifadə edərkən çox vaxt sərf edilmir.

Lakin dondurulmuş qida qurupunda ən böyük nisbəti meyvə və tərəvəzlər tutsa da, ən tez xarab olan da bu qurupdakı qidalardır. Səbəbi isə tərkiblərindəki su miqdarıdır. Meyvə və tərəvəzlərin tərkibində olan su lazımi şərtlər yerinə yetirilmədən dondurulduğu zaman mikroorqanizmlərin geniş mənbəyi kimi qidaların xarab olmasına gətirib çıxarır.

Quru meyvələrin dondurulması vakuumda dondurma-qurutma prosesi vasitəsilə hazırlanır. Əvvəlcə meyvə -30 ilə -40 dərəcə Selsi arasındakı temperatura qədər dondurulur və qidanın içərisində çoxsaylı kiçik buz kristalları əmələ gəlir. Daha sonra hava çıxarılır, təzyiq azalır və buz kristallarının sublimasiyasından əmələ gələn su buxarı davamlı olaraq çıxarılır. Bir neçə saatdan sonra qida tamamilə quruyur.

**Şəkərli diabet və hipertoniya xəstələri üçün fəsadlar**

Sağlam qidalanma üzrə mütəxəssis Məhsəti Hüseynova "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, dondurularaq qurudulmuş meyvələr son zamanlar dəbdə olsa da, əgər bu keyfiyyəti məhsuldursa, mənşəyi bəlli olan yerdə istehsal olunursa, eləcə də saxlama qaydalarına əməl olunursa və mütləq şəkildə porsiyaya diqqət olunaraq qəbul olunursa, çox faydalıdır: "Çünki bir çox meyvələr təbii şəkildə dondurularsa, onların qidalanma dəyəri, vitamin və mineralları olduğu kimi qalır.




Sadəcə nəmlik dərəcəsi və maye hissəsi azalır, amma vitamin və minerallar qalır. Xüsusilə, mövsümi olmayan meyvələri belə saxlamaqla, onları başqa fəsildə də qəbul etmək olar. Təbii şəkərlə və liflərlə zəngin olduqları üçün sağlamlıq baxımından faydalıdır. Lakin porsiya nəzarəti çox önəmlidir. Çünki insanlar yüngül və praktik olduğu üçün bu meyvələri həddən artıq qəbul edirlər. Bu isə əlavə şəkər və kalori qəbuluna, xüsusilə də şəkərli diabet və hipertoniya xəstələri üçün fəsadlara səbəb ola bilər. Tövsiyə olunur ki, bir ovucdan çox olmamaq şərti ilə qəbul edilsin. Böyük paketlərdən çəkilərək satılması zamanı temperatur rejimi pozularsa, məhsul xarab ola bilər. Bundan əlavə etiket oxunmalı, tərkibində konservant, dadlandırıcı, aromatizator kimi əlavələr varsa diqqət edilməlidir. Alergiyası olanlar, azyaşlılar və yaşlılar daha ehtiyatlı olmalıdır. Sanitar-gigiyena qaydalarına riayət olunması vacibdir. Satıcının əl təmizliyi və istifadə olunan alətlərin təmizliyi nəzərə alınmalıdır. Əks halda fiziki çirklənmə səbəbindən həzm sistemində problemlər yarana bilər".

**Gigiyenik baxımdan təhlükə**

Ekspert əlavə edib ki, problemin böyük hissəsi bazarda satılan məhsulların keyfiyyəti ilə bağlıdır. Küçələrdə, bazarlarda günəş altında açıq halda satılan dondurulan meyvələr gigiyenik baxımdan təhlükəlidir: "Toz yığılır, milçək qonur, havadakı çirk sporları məhsulun üstünə çökür. Belə məhsulu sağlam qida hesab etmək olmaz. Biz quru meyvə yox, mikrob yığını almış oluruq. Hazırda satışda olan qurudulmuş meyvələrin əksəriyyəti təbii üsulla hazırlanmır. Bir çox hallarda meyvələr şəkərlə qarışdırılır, karamelizə edilir, qızardılır, sonra isə "qurudulmuş meyvə" adı ilə satılır. Bu artıq meyvə deyil, şəkər yığınıdır. Həm də qeyri-təbii rəngləndiricilərdən istifadə olunur. Bu maddələr allergiya yarada, tənəffüsü çətinləşdirə bilər".

**Təhlükəsiz və düzgün hazırlanmadığı halda...**

M.Hüseynova qeyd edib ki, istehlakçılar məhsulu alarkən xüsusilə diqqətli olmalıdır: "Gigiyenik şəraitdə satılan məhsullara üstünlük verilməli, tərkibində şəkər, karamel və rəngləndirici olmayan məhsullar seçilməli, məhsulun rəngi həddindən artıq parlaqdırsa, bu, əlavə kimyəvi maddələrdən xəbər verə bilər. Təhlükəsiz və düzgün hazırlanmadığı halda qurudulmuş meyvə fayda yox, ciddi risk yaradır".

**İkinci dəfə dondurmaq olar?**

Ekspert meyvə-tərəvəzlərin və digər qida məhsullarının ikinci dəfə dondurulması məsələsinə də toxunub: "Ət və zülal tərkibli məhsullar dondurulduqda onların donu yalnız 1 dəfə açıla bilər. Ətin dondurulmasında diqqət edilməsi vacib məqamlardan biri də onun ətrafının hava daxil olmayacaq şəkildə saxlanılmasıdır. Tərəvəzlərin isə tərkibinin 80 faizi sudan ibarətdir. Düzgün şəkildə donmadıqda zəhərlənməyə səbəb ola bilər".

Ekspert meyvə və tərəvəzlərin, həmçinin ət məhsullarının donunun açılma üsulları barədə də məlumat verib: "Meyvə və tərəvəzlərin və ət məhsullarının donunun açılması bir-birindən fərqlidir. Tərəvəzləri bişirərkən suya donu açılmadan atılmalıdır. Əgər donu açılaraq bişirilərsə, hüceyrə quruluşları pozulur və qida dəyəri azalır. Donmuş tərəvəzlərin bişmə müddəti təzəyə nisbətdə 3 dəfə azdır.

*İdman*

# Türkiyəli alpinist dünya rekordçusu olub



Türkiyəli alpinist Levent Koç son 3 ildə dünyada ən çox zirvəyə qalxan idmançı olub. 46 yaşlı idmançı 2023-cü ildə 81, 2024-cü ildə 101, 2025-ci ildə isə 70 zirvəyə qalxaraq, ardıcıl 3 il dünya zirvə reytinqində birinciliyi qoruyub. Levent Koç Azərbaycan zirvələrinə etdiyi ekspedisiyalarla da yadda qalıb. O, bu müddət ərzində ölkəmizdə yerləşən Şahdağ zirvəsini fəth edib. O, həmçinin Naxçıvan Muxtar Respublikasında yerləşən Haça dağına da qalxıb. Alpinist qeyd edib ki, Gürcüstanda Kazbek, İranda Dəmavənd kimi yüksək dağlara da ekspedisiyalar təşkil edib. "Azərbaycanın dağları mənim üçün çox önəmlidir. Şahdağ və Haça zirvələrinə qalxmaq mənim üçün xüsusi təcrübə oldu", - deyə Koç bildirib.

Qeyd edək ki, Levent Koç Türkiyənin ən yüksək zirvələri olan Ağrı, Süphan və Cilo dağlarını da fəth edib. Aladağlarda isə bir ildə 80-90 zirvə qalxışı həyata keçirib. 2024-cü ildə 101 zirvə ilə şəxsi rekorduna imza atıb.

# Asiyada ötən ilin ən məhsuldar futbolçusu bəlli olub



Asiya Futbol Konfederasiyasına (AFC) üzv ölkələr arasında ən çox qol vuran futbolçular bəlli olub. İraqlı Möhnəd Əli ən məhsuldar oyunçu adına layiq görülüb. O, ötən il ümumilikdə 34 qol vurub. Bunlardan 28-i klub səviyyəsində - əvvəl İraqın "Əl-Şorta", daha sonra isə Birləşmiş Ərəb Əmirliklərinin "Dibba" komandasında çıxış edərkən müxtəlif turnirlərdə qeydə alınıb. Qalan 6 qolu isə o, İraq milli komandası ilə oyunlarda vurub. Siyahıda Özbəkistan millisinin hücumçusu İqor Sergeyev 29 qolla ikinci, yaponiyalı Daizen Maeda isə 27 qolla üçüncü pillədə qərarlaşıb



# "Real Madrid" Xabi Alonso ilə yollarını ayırıb

İspaniyanın "Real Madrid" klubu baş məşqçisi Xabi Alonso ilə vidalaşıb. Bu barədə Madrid təmsilçisinin rəsmi saytı məlumat yayıb. Ötən gün "kral klubu" İspaniya Superkubokunun finalında əzəli rəqibi "Barselona"ya 2:3 hesabı ilə uduzub. Bu məğlubiyyətdən sonra klub rəhbərliyi 44 yaşlı çalışdırıcı ilə yollarını ayırmaq qərarına gəlib. Onu bu vəzifədə Alvaro Arbeloa əvəzləyib.

Klubun açıqlamasında Xabi Alonsonun hər zaman azarkeşlərin rəğbətini qazandığı bildirilib. Mütəxəssisə xidmətlərinə görə təşəkkür edilib. "Real Madrid" La Liqada XIX turdan sonra 45 xalla ikinci pillədə qərarlaşıb.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4472**
**Sifariş: 71**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova